

# BMT TRİBUNASINDAN DÜNYAYA ÇAĞIRIŞ

Prezident İlham Əliyevin BMT Baş Assambleyasında qalib dövlətin lideri olaraq çıxışı həm iştirakçılar, həm də dünya mediasının marağına səbəb oldu.

**Prezident İlham Əliyevin çıxışı zamanı Vaşinqton sammitinə vurğu etməsi, əldə edilən razılaşmalar çərçivəsində səsləndirdiyi fikirlər əslində rəsmi Bakının sülh gündəliyi haqqında geniş təsəvvür yaradır. Bu gündəlik qalib dövlətin qalib Liderinin baxışlarını tam əks etdirir.**

**İlham Əliyev BMT tribunasındakı çıxışında daha bir real problemi də diqqətə çatdırdı – Xəzər dənizinin quruması. O, Xəzər dənizinin səviyyəsinin azalmasının əsas səbəbinin iqlim dəyişikliyi olmamasını qeyd etməklə, problemin siyasi və iqtisadi maraqlardan qaynaqlanan istiqamətlərinə diqqət çəkmiş oldu.**

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

27 SENTYABR ŞƏNBƏ 2025 № 37 (4238) Qiyməti - 60 qəpik www.kaspi.az





## SÜLHƏ, YOXSA QEYRİ-MÜƏYYƏNLİYƏ GEDƏN YOL?

BMT Baş Assambleyasının sessiyası daha çox Fələstinin tanınması ilə yadda qaldı. Bu, ilk baxışda Fələstin üçün siyasi-diplomatik uğur kimi görünə bilər. Amma bu uğurun praktik müstəviyə keçməsi real deyil.

SƏHİFƏ 5-də



## BAKIDA “TIXAC VERGİSİ” ÖDƏYƏCƏYİK

Gün ərzində Bakıya 300 mindən çox avtomobil daxil olur. Bunlardan 100 mindən çoxu Sumqayıt-Xırdalanın, 200 min avtomobil isə ətraf ərazilərin payına düşür. Bu yükü azaltmaq üçün “tıxac vergisi”nin tətbiqi gündəmdədir.

SƏHİFƏ 6-da



## “DƏRSLİKLƏR TEZ-TEZ DƏYİŞMƏMƏLİDİR”

Professor Bədirxan Əhmədli: “Orta məktəb dərsliklərinə bu qədər xərc çəkilir, amma ali məktəb dərsliklərinə bir manat da xərclənmir. Təkcə dərslik deyil, dərs vəsaitlər, metodik vəsaitlər, proqramlar da həmçinin...”

SƏHİFƏ 8-9-da



## ŞƏHİDLƏRİMİZİ HÖRMƏT VƏ EHTİRAMLA ANIRIQ

# ZƏFƏR YOLUNU BAŞLADANLAR

30 illik işğala cəmi 44 gün ərzində son qoyan, düşməni kapitulyasiyaya imza atmağa məcbur edən Azərbaycan Ordusu minlərlə şəhid və qazilərimizin hesabına dastanlar yazdı.

### ÖRNƏK OLAN QƏHRƏMANLIQ HEKAYƏLƏRİ

30 illik işğala cəmi 44 gün ərzində son qoyan Azərbaycan Ordusu minlərlə şəhid və qazimizin hesabına dastanlar yazdı. Onların qəhrəmanlıq hekayələri bu gün hər bir Azərbaycan gənci üçün örnək, Vətən sevgisi nümunəsidir. 27 sentyabr tarixi Azərbaycan dövlətinin, xalqının taleyində çox şeyi dəyişdi.

### ŞƏHİDLƏRİMİZİN XATİRƏSİ UCA TUTULUR

Azərbaycanın ərazi bütövlüyü uğrunda üç minə yaxın hərbçimiz şəhid olub. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.



## QƏLƏBƏLƏR İTKİSİZ ƏLDƏ EDİLMİR

Ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Prezident İlham Əliyevin Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir.

SƏHİFƏ 3-də



## ƏN BÖYÜK ARZUSU QUBADLINI GÖRMƏK İDİ

Turizm və Menecment Universitetində ali təhsil alıb. Ali təhsilini başa vurduğu il əsgərliyə yollanıb. Vətən müharibəsi başlayanda cəmi üç ayın əsgəri olub. Hərbi hissədə qalmaq imkanı olsa da, müharibəni seçib.

SƏHİFƏ 4-də



## UNİVERSİTETLƏRLƏ VALİDEYNLƏRİ ÜZ-ÜZƏ GƏTİRƏN PROBLEM

Bəzi özəl universitetlər Elm və Təhsil Nazirliyinin tövsiyəsinə fikir verməyərək təhsil haqlarının hissə-hissə ödənilməsinə razı olmur. Onların bu addımı isə tələbələrin və valideynlərin narazılığına səbəb olur.

SƏHİFƏ 12-də




## GİNNESİN REKORDLAR MUZEYİNDƏN REPORTAJ

Bura Avropada insanların inanılmaz nailiyyətlərini təqdim edən yeganə interaktiv muzeydir. Yaradıcısı dünyanın müxtəlif ölkələrindən olan insanların 500-ə yaxın inanılmaz rekordunu bir yerdə toplamağa müvəffəq olub.

SƏHİFƏ 15-də



**SOCAR İtaliya şirkətindən pay alır**

SƏHİFƏ 10-da



**Hibrid avtomobil almaq istəyənlər tələsməlidir**

SƏHİFƏ 11-də




**Statistika yoxdur, bəs oğurluq?**

SƏHİFƏ 7-də



**Pomidor və xiyarı bahalaşdıran səbəb**

SƏHİFƏ 13-də



**Güləşçilərdən möhtəşəm nəticələr**

SƏHİFƏ 16-da

# BMT TRİBUNASINDAN DÜNYAYA ÇAĞIRIŞ



**Prezident İlham Əliyevin BMT Baş Assambleyasında qalib dövlətin lideri olaraq çıxışı həm iştirakçılar, həm də dünya mediasının marağına səbəb oldu. Dünyanın ən ali tribunasından beynəlxalq aləmə ünvanlanan Azərbaycanın sülh mesajları diqqət çəkdi.**



AQŞİN KƏRİMOV

Bu həftə Azərbaycan Prezidenti İlham Əliyevin qrafiki məhsuldar idi. Dövlət başçısı ilk dəfə olaraq qalib ölkənin rəhbəri kimi BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorka getdi. Ölkə başçısı Baş Assambleya çərçivəsində çoxsaylı görüşlər keçirərək Azərbaycanın yeni beynəlxalq nizamın formalaşmasındakı rolunu irəliyə aparan mövqeləri ifadə etmiş oldu. Xüsusilə də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampla dialoqu və BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı vurğulanmalıdır.

### QARŞI TƏRƏFİN İSTƏYİ İLƏ REALLAŞAN İKİTƏRƏFLİ GÖRÜŞLƏR

Prezident İlham Əliyev Baş Məclis çərçivəsində bir çox hökumət, dövlət başçıları, o cümlədən Finlandiya, Yunanıstan, Keniya, Portuqaliya, Bolqarıstan liderləri ilə görüşdü. Bundan əlavə, İlham Əliyevin BMT-nin Baş katibi Antonio Quterreş və Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşləri baş tutdu. İlham Əliyev beynəlxalq şirkətlərin, o cümlədən ABŞ-nin böyük investisiya şirkətlərinin rəhbərləri ilə səmərəli müzakirələr apardı. Üstəlik, bütün görüşlər qarşı tərəflərin təşəbbüsləri ilə baş tutdu və bu, onu deməyə əsas yaradır ki, İlham Əliyev qlobal, regional əməkdaşlıq modelində etibarlı tərəfdaş nümunəsi kimi çıxış edir. Deməli, İlham Əliyevlə müzakirələr təkcə diplomatik protokolun tələblərindən irəli gəlməyib. Eyni zamanda Cənubi Qafqazda Azərbaycanın güc mərkəzi, sülh və təhlükəsizliyin təşəbbüskarı kimi mövqeyini qəbul edən reallıqların indikatorudur. Azərbaycan paralel olaraq Avropa, Yaxın Şərq regionlarında da etibarlı aktordur.



## TRAMP-ƏLİYEV DİALOQU, MARAQLI MƏQAMLAR

Avqust ayında Vaşinqtonda həm sülh prosesi, həm də Bakı-Vaşinqton münasibətlərinin inkişafına dair əldə olunan tarixi razılaşmaların əhəmiyyəti özünü Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirakı zamanı bir daha büruzə verdi. ABŞ Azərbaycanın əhəmiyyətli beynəlxalq transformasiyalardakı rolunu dərk edərək İlham Əliyevlə ortaq imperativlərin yaradılmasını Qafqaz siyasətində üstün prioritet hesab edir. Qəbulda Donald Trampın İlham Əliyevlə dialoqu, vurğulanan məqamlar, hər iki liderin bir-birinə münasibətdə dərin hörmət və səmimi münasibət sərgiləməsi diqqət çəkdi. ABŞ lideri Azərbaycan Prezidentinin Ermənistanla müharibəyə son qoyan strategiya və təşəbbüslərinə güclü şəkildə dəstəyini siyasi-diplomatik üslubda nümayiş etdirdi. Bu, həm də Vaşinqtonun Azərbaycana münasibətdə yeni strategiyasının hansı konturlar çərçivəsində reallaşacağının təsbiti idi. Bakı ilə Vaşinqton həm sülh gündəmindən, həm də strateji əməkdaşlıqdan irəli gələn vəzifə və məsuliyyətin icrası təşəbbüslərini davam etdirəcək.

### VAŞİNQTON SAMMİTİNƏ EDİLƏN VURĞU

Prezident İlham Əliyevin BMT Baş Assambleyasında qalib dövlətin lideri olaraq çıxışı həm iştirakçılar, həm də dünya mediasının böyük diqqət və marağına səbəb oldu. Dünyanın ən ali tribunasından beynəlxalq aləmə ünvanlanan sülh mesajları diqqət çəkdi.



Bu məsələdə ABŞ Prezidenti Donald Trampın birbaşa səylərinin tarixi əhəmiyyət daşıması xüsusi qeyd olundu.

Prezident İlham Əliyevin çıxışı zamanı Vaşinqton sammitinə vurğu etməsi, əldə edilən razılaşmalar çərçivəsində səsləndirdiyi fikirlər əslində rəsmi Bakının sülh gündəliyi haqqında geniş təsəvvür yaradır. Bu gündəlik qalib dövlətin qalib Liderinin baxışlarını tam əks etdirir: “Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”dur (TRIPP). Vaşinqton Sammiti, həmçinin Azərbaycan-ABŞ münasib ətlərində yeni mərhələnin başlanmasına işarədir”.

Dövlət başçısı qeyd edib ki, Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. “Ümumilikdə avqust ayında ABŞ-yə səfərim zamanı əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət daşıyır”, - Prezident İlham Əliyev bildirib.

### XƏZƏR PROBLEMİ BMT-DƏ QALDIRILDI

İlham Əliyev BMT tribunasındakı çıxışında daha bir real problemi də diqqətə çatdırdı – Xəzər dənizinin quruması. O, Xəzər dənizinin səviyyəsinin azalmasının əsas səbəbinin iqlim dəyişikliyi olmamasını qeyd etməklə, problemin siyasi və iqtisadi maraqlardan qaynaqlanan istiqamətlərinə diqqət çəkmiş oldu: “Xəzər dənizi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan, həmçinin həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır”.

İlham Əliyevin Xəzər dənizi ilə bağlı problemi BMT tribunasından gündəmə gətirməsi üç prizmadan diqqətəlayiqdir:

- Xəzər dənizi Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində əhəmiyyətli ticarət donanmasının yerləşdiyi region kimi iqtisadi, enerji təhlükəsizliyində mühüm rol oynayır. Bunun dayanıqlı olması üçün beynəlxalq ictimaiyyət Azərbaycanın Xəzər dənizi ilə bağlı siyasətinə dəstək verməlidir,
- Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta dəhliz) perspektiv layihələrini Xəzər dənizi və Zəngəzur dəhlizi ilə uyğunlaşdıran strategiya hazırlayır.

Beləliklə, Prezident İlham Əliyevin qısa müddət ərzində ikinci dəfə ABŞ-yə səfəri özünün əhəmiyyəti və statusuna görə rəsmi Bakının beynəlxalq aləmin aparıcı aktorlarından biri olduğunun təsbitidir. İstər qalib dövlət olaraq mövcud reallıqlar və rəsmi Bakının sülh gündəliyinin dünyaya ən ali tribunadan bəyan edilməsi, istərsə də Prezident İlham Əliyevə göstərilən xüsusi diqqət bölgəmizdə əsl söz sahibinin kim olduğuna dair beynəlxalq aləmdə daha aydın təsəvvür yaratdı.

# ZƏFƏR YOLUNU BAŞLADANLAR



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

**30 illik işğala cəmi 44 gün ərzində son qoyan, düşməni kapitulyasiyaya imza atmağa məcbur edən Azərbaycan Ordusu minlərlə şəhid və qazilərimizin hesabına dastanlar yazdı. Onların qəhrəmanlıq hekayələri bu gün hər bir Azərbaycan gənci üçün örnək, Vətən sevgisi nümunəsidir.**

**2020-ci il 27 sentyabr... Bu gün müstəqil Azərbaycanın tarixində dönüş anı, yeni bir səhifənin başlanğıcı idi. 30 ildən artıq davam edən işğal faktının, sonsuz və nəticəsi olmayan danışıqların, illərlə üzdəniraq Minsk Qrupu və digərlərinin irəli sürdüyü "münaqişənin hərbi yolla həlli yoxdur" tezisinin bir andaca yanıb kül olduğu o an Zəfər yolumuzun başladığının işarəsi idi.**

**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "irəli" əmri ilə Azərbaycan Silahlı Qüvvələri 2020-ci ilin 27 sentyabrında erməni işğalına son qoymaq, ərazi bütövlüyümüzü, sərhədlərimizin toxunulmazlığını təmin etmək üçün bütün gücü ilə düşmənə sarsıdıcı zərbələr vurmağa başladı. Bu müqəddəs missiyanın icrası üçün minlərlə Azərbaycan gənci könüllü olaraq ordu sıralarına qatıldı. Hər kəs bir amal, bir məqsəd uğrunda Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşdi. Dünya bir daha Azərbaycanın timsalında sarsılmaz xalq-iqtidar-ordu həmrəyliyinin, birliyinin şahidi oldu.**

### AZƏRBAYCAN ORDUSU DASTANLAR YAZDI

**30 illik işğala cəmi 44 gün ərzində son qoyan, düşməni kapitulyasiyaya imza atmağa məcbur edən Azərbaycan Ordusu minlərlə şəhid və qazimizin hesabına dastanlar yazdı. Onların qəhrəmanlıq hekayələri bu gün hər bir Azərbaycan gənci üçün örnək, Vətən sevgisi nümunəsidir. 27 sentyabr tarixi Azərbaycan dövlətinin, xalqının taleyində çox şeyi dəyişdi. Qalib xalq, qalib dövlət adının əsası məhz o gün qoyuldu. Prezident İlham Əliyevin də vurğuladığı kimi, müharibə dövründə bir nəfər də olsun Azərbaycan əsgəri döyüşdən geri durmadı. Canı, qanı bahasına da olsa daim irəli getdi. Çünki Silahlı Qüvvələrimiz Vətən sevgisi, Azərbaycan dövlətinə sədaqət, bayrağına bağlılıq ruhunda yetişdirilmişdi. 30 il ərzində məhz bu amal üçün formalaşdırılmışdı. İşğala, zülmə, terrora, separatizmə son qoymaq, Xocalının, Qaradağlının, Başlıbelin qisasını lazımi anda döyüş meydanlarında almaq üçün...**

## TARİXİ QƏLƏBƏMİZİN SİRRİ

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən dünyanın ən güclü orduları sırasında layiqli yerini tutan qalib Azərbaycan ordusu bu ali məqsədə ən qısa müddətdə və xüsusi peşəkarlıqla nail oldu. Düşmənin on mindən çox əsgərini döyüş meydanlarından qaçmağa məcbur etdi. 27 sentyabrdan başlayan döyüş yolumuz dünya hərb tarixində də yeni səhifə açdı. Beynəlxalq hərbi akademiyalar 44 günlük Vətən müharibəsində həyata keçirilən hərbi əməliyyatların hər bir anını xüsusi diqqətlə öyrənir, Azərbaycan əsgərinin qələbəsinin sirrini çözməyə çalışırlar.

### ERMƏNİ MİFİNİN DARMADAĞIN EDİLDİYİ AN

27 sentyabr tarixinin həm dövlətimiz, həm də bölgəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Bu tarix ermənilərin yaratdığı "keçilməz sədd", "məğlubedilməz erməni ordusu" kimi mifləri darmadağın etdi. Erməni faşizminin belinin qırıldığını, separatizmə Azərbaycan daxilində yer olmadığını bütün dünyaya göstərdi. Azərbaycan Prezidentinin "irəli" əmri beynəlxalq aləmə münaqişənin hərbi-siyasi yolla həllinin real olduğunu xatırlatdı. 44 günlük Vətən müharibəsinin başlanğıcı Azərbaycanın bütün beynəlxalq təzyiq və təhdidlərə layiqincə cavab vermək gücündə olduğunu nümayiş etdirdi. Qısa müddət ərzində on min kvadrat kilometrdən artıq ərazi düşmən işğalından təmizləndi. Azad edilən ərazilər erməni vandalizminin, faşizminin əsl simasını dünyaya əyani olaraq göstərdi.

Bütöv yaşayış məntəqələrinin, tarixi mədəni abidələrimizin yer üzündən silinməsi, Silahlı Qüvvələrimizin irəli getdikcə bu mənzərənin şahidi olması qələbəyə olan inamımızı, işğala son qoymaq arzumuzu xalq olaraq daha da alovlandırdı. 27 sentyabr həm də bu mirasın əsl sahiblərinə qayıdışının başlanğıcı idi.



## Qələbələr itkisiz əldə edilmir

**Təbii ki, qələbələr itkisiz əldə edilmir. Bu müharibədə Azərbaycanın ərazi bütövlüyü uğrunda üç minə yaxın hərbçimiz şəhid olub. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Prezident İlham Əliyevin Sərəncamı ilə hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir. Sərəncamda da qeyd olunur ki, dövlət Vətən müharibəsində iştirak etmiş Azərbaycanın mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.**

### BÜTÖV AZƏRBAYCAN ŞƏHİDLƏRİMİZİN BİZLƏRƏ ƏMANƏTİDİR

**27 sentyabrda respublikanın hər bir rayonunda şəhidlərimizin əziz xatirəsinə həsr edilən anım tədbirləri təşkil olunur. Yüz minlərlə insan müqəddəs Şəhidlər Xiyabanlarını ziyarət edərək Vətən uğrunda canlarından keçənləri yad edirlər.**

**Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə şəhid ailələrinə, qazilərimizə yüksək diqqət və qayğı göstərilir. Şəhidlərimizin adlarının əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılır. Memorial komplekslər yaradılır, bu gün sahib olduğumuz bütöv Azərbaycan uğrunda onların qəhrəmanlıq salnamələri dərsliklərdə gənc nəslə tədris edilir. Bu səbəbdəndir ki, şəhidlərimizin bizlərə əmanət etdikləri bütöv və güclü müstəqil Azərbaycanı qorumaq, işğaldan azad edilən ərazilərin hər qarışını yenidən dirçəltmək, 30 illik işğalın açdığı yaraları bağlamaq bu gün ən mühüm vəzifəmizdir.**

# ƏN BÖYÜK ARZUSU QUBADLINI GÖRMƏK İDİ

Vətən müharibəsi şəhidi Məhəmmədəli Həsənzadənin xatirəsi daim böyük hörmət və ehtiramla anılır. Onun döyüş yolu, qəhrəmanlıqları gənclər üçün örnəkdir.

ƏRTURAN İSMAYIL



“Atam Hörmət Həsənzadə Birinci Qarabağ müharibəsinin və 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısıdır. Qardaşım Məhəmmədəli bunu bildiyi üçün əlinə keçən hər fürsətdə atamı sorğu-suala tutar, keçdiyi döyüş yolu, üzləşdiyi hadisələr, hərbçilərimizin şücaəti barədə bacardıqca çox məlumat öyrənməyə çalışardı. Atam da həvəslə danışardı. Biz o zamanlar bunu adi ailə söhbəti kimi qəbul edərdik. Sən demə, Məhəmmədəli atamı özünün qəhrəmanına çevirib, onun kimi Vətən torpaqlarının azadlığı uğrunda savaşda iştirak etmək həvəsinə düşübmüş. Ona görə də müharibə, hərbi əməliyyatlar barədə daha çox məlumat toplayır, özünü həmin ana hazırlayırmış. Biz bunu onun Qusardakı hərbi hissəni tərk edib ön cəbhəyə yollanması zamanı bildik”. Bu barədə Vətən müharibəsi şəhidi Məhəmmədəli Həsənzadənin qardaşı Sahil Həsənzadə bizimlə söhbətində bildirdi.

**“TOYA GEDİRİK, HAQQINIZI HALAL EDİN”**

O qeyd etdi ki, qardaşı Məhəmmədəli çox vətənpərvər, məsuliyyətli gənc olub: “1993-cü ildə Qubadlı rayonu Ermənistan silahlı birləşmələri tərəfindən işğal ediləndə ailəmiz Qilican kəndindən köçməyə, Sumqayıt şəhərində məskunlaşmağa məcbur olub. Qardaşım Məhəmmədəli də 1999-cu ildə bu şəhərdə anadan olub, 2016-cı ildə Qubadlı rayonu Yuxarı Mollu kənd orta məktəbini bitirib. 2016-2020-ci illərdə Azərbaycan Turizm və Menecment Universitetində “Biznes idarəçiliyi” ixtisası üzrə ali təhsil alıb. Ali təhsilini başa vurduğu il əsgərliyə yollanıb və Qusar rayonundakı “N” saylı hərbi hissədə xidmət edib. Vətən müharibəsi başlayanda qardaşım cəmi üç ayın əsgəri olub. Onun cəbhə xəttindən uzaq hərbi hissədə qalıb xidmətini davam etdirmək imkanı var idi. Lakin o, müharibəni seçdi. Ön cəbhəyə yollandığı gün də atamla qısa telefon əlaqəsi saxlayıb. Şifrəli danışaraq deyib ki, toya gedirik, özünüzü qoruyun və haqqınızı halal edin”.

**“ARZULARINDAN BİRİ DƏ ÜZÜNÜ GÖRMƏDİYİ ATA-BABA YURDUMUZA QAYITMAQ İDİ”**

S.Həsənzadə qardaşının keçdiyi döyüş yolundan da danışdı. Bildirdi ki, M.Həsənzadə 44 günlük müharibədə tank əleyhinə taqımda qulluq edib. O, Füzuli, Cəbrayıl və Xocavəndin azad olunması uğrunda hərbi əməliyyatlarda iştirakçı olub: “Məhəmmədəli məcburi köçkün ailəsində dünyaya gəlmiş, böyümüşdü. Təbii ki, arzularından biri də üzünü görmədiyi ata-baba yurdumuza qayıtmaq, oranı yağı tapdağından azad etmək idi. Fikrimcə, onun taleyini döyüşlərə, müharibəyə bağlayan hisslərdən biri də məhz bu idi. O, Qarabağı, o cümlədən Qubadlını azad görmək, özünün qəhrəmanı hesab etdiyi qazi və şəhidlərimizin qisasını almaq istəyirdi. Döyüş yoldaşlarının bizə söylədiklərinə görə, hərbi əməliyyatlarda çox böyük şücaət, qorxmazlıq nümayiş etdirib, mərdi-mərdanə vuruşub. Oktyabrın 23-də növbəti əməliyyat zamanı düşmən mərmisi onun yaxınlığında partlayıb. Qardaşım və döyüş yoldaşı Azər Yarıyev yaralanıb. Məhəmmədəli özü yaralı ola-ola hərbçi yoldaşını döyüş meydanından çıxarıb, onun həyatını xilas edib”.

**“QÜRUR DUYURAM Kİ, MƏHƏMMƏDƏLİ BU ŞANLI TARİXİN BİR PARÇASIDIR”**

S.Həsənzadə qardaşı Məhəmmədəlinin hərbçilərimizlə birlikdə Xocavənddən Şuşa istiqamətinə irəliləyərkən düşmən güllesinə tuş gəldiyini, şəhidlik zirvəsinə ucaldığını bildirdi: “Qardaşım öz seçdiyi yolda şücaəti və qəhrəmanlığı ilə milyonların qəhrəmanına çevrildi, şəhidlik zirvəsinə ucaldı. O, Vətən müharibəsinin sona çatmasına cəmi dörd gün qalmış – noyabrın 6-da Qırmızı bazar ərazisində şəhid oldu və noyabrın 8-də Sumqayıtdakı Şəhidlər Xiyabanında dəfn olundu. Hər bir insan itkisi ağırdır və bu dərdi daşımaq çox çətindir. Amma bizim təskinliyimiz var ki, Məhəmmədəli və onun kimi digər şəhid oğul-qızlarımız Vətənin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edibər. Onlar biz və bizdən sonrakı nəsillərin xoşbəxtliyi naminə özlərini odun-alovun içinə atıblar, öz qanları ilə Zəfər tariximizi yazıblar. Qürur duyuram ki, Məhəmmədəli bu şanlı tarixin bir parçasıdır”.

**ŞƏHİDİN ADI QUBADLIDA DA ƏBƏDİLƏŞDİRİLƏCƏK**

S.Həsənzadə şəhid ailəsi kimi dövlətin onlara diqqət və qayğısından da bəhs etdi. Söylədi ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla qardaşı Məhəmmədəli Həsənzadə “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə” medalları ilə təltif olunub. Sumqayıt şəhərində Yaşıl Dərə Bağları adlanan ərazidə şəhid M.Həsənzadənin abidəsi kompleksi yaradılıb. Vaxtilə ali təhsil aldığı Azərbaycan Turizm və Menecment Universitetində şəhid M.Həsənzadəyə aid guşə yaradılıb, auditoriyaya onun adı verilib.

Bundan başqa, Qubadlı rayonunun Kavdadığ, Xocahan, Yuxarı Mollu kənd tam orta məktəblərində, Sumqayıt şəhərindəki 7 nömrəli tam orta məktəbdə şəhidin adına siniflər yaradılıb. Gələcəkdə Qubadlı rayonuna köç baş tutacağı təqdirdə, orta məktəblərdən birinə də şəhid Məhəmmədəli Həsənzadənin adı veriləcək. Eyni zamanda Qubadlı rayonunda əsas küçələrdən biri şəhidin adını daşıyacaq. Bütün bunlar şəhid M.Həsənzadənin adının əbədiləşdirilməsinə, xatirəsinin daim uca tutulmasına yönəlik addımlardır.

# SÜLHƏ, YOXSA QEYRİ-MÜƏYYƏNLİYƏ GEDƏN YOL?

**BMT Baş Assambleyasının 80-ci sessiyası daha çox Fələstinin dövlət olaraq tanınması ilə yadda qaldı. Ekspertlər qeyd edirlər ki, bu, ilk baxışda Fələstin üçün siyasi-diplomatik uğur kimi görünə bilər. Amma bu uğurun praktik müstəviyə keçməsi real deyil.**





AZƏR NURİYEV

Dünyanın diqqəti bu həftə Nyu-Yorka - BMT Baş Assambleyasının 80 illik yubileyinə və 80-ci sessiyasına yönəldi. Assambleyanın 80-ci sessiyasında əsas diqqət Fələstin probleminə yönəldildi. Daha doğrusu, bu toplantı daha çox Fələstinin dövlət olaraq tanınması ilə yadda qaldı.

### ABŞ VƏ AVROPADAN FƏRQLİ MÖVQE

ABŞ Prezidenti Donald Tramp BMT mənzil-qərargahında müsəlman ölkələrinin liderlərinin iştirakı ilə baş tutan zirvə toplantısında çıxışında Qəzzada müharibəni bitirəcəyinə söz versə də, onun tanınmasına toxunmadı. Birləşmiş Ştatlar hesab edib ki, Fələstin ərazilərinin dövlət quruluşu məsələləri yalnız İsrail-Fələstin danışıqları çərçivəsində həll olunmalıdır. Trampdan fərqli olaraq, Fransa Prezidenti Emmanuel Makron BMT Baş Assambleyasının kürsüsündən Fələstin dövlətini rəsmən tanıdığını açıqladı. Bu bəyanat Fransa və Səudiyyə Ərəbistanının BMT-nin Nyu-Yorkdakı qərargahında təşkil etdiyi sammitdə səsləndirildi. Sammit İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinə həsr olunub. Bir gün öncə isə Böyük Britaniya, Avstraliya, Kanada və Portuqaliya da Fələstin dövlətini tanıdıqlarını bildiriblər. Malta, Andorra, Belçika, Lüksemburq və San-Marino da bu addımı atıb. Almaniya və İtaliya isə Fələstin dövlətinin tanınmasına dair çağırışları dəstəkləməyib.

80-ci sessiyaya qədər Fələstin dövlətinin müstəqilliyini BMT-yə üzv olan 193 dövlətin 152-si, həmçinin BMT-də müşahidəçi statusunda olan Vatikan və Sahara Ərəb Respublikası tanıyıb.

Göründüyü kimi, dünya ölkələrinin əksəriyyəti bir tərəfdə, ABŞ və İsrail isə qarşı tərəfdədir. Lakin istənilən halda, baş verənlər Fələstinin uğurudur. Muxtariyyətin rəhbəri Mahmud Abbasın sözlərinə görə, hazırda əsas prioritetlər Qəzza zolağında atəşkəsin təmin olunması, münaqişə bölgəsinə humanitar yardımın çatdırılması, bütün girov və məhbusların azad edilməsi, İsrail qoşunlarının tamamilə geri çəkilməsi və bərpa prosesinə başlanmasıdır.

İsrailə gəldikdə, ölkə Fələstin dövlətini tanımamaq məsələsində heç vaxt olmadığı qədər qətiyyətlidir.

## TANINMA PROSESİNDƏ ƏRDOĞAN AMİLİ

Sözsüz ki, tanınma prosesində qardaş Türkiyənin rolu da xüsusi qeyd edilməlidir. Prezident Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 80-ci sessiyasının faktiki olaraq Fələstin məsələsi üzərində qurulmasına müvəffəq olub. Elə özü də çıxışlarında əsas diqqəti bu məsələyə yönəldib. O, Fələstini tanıyan ölkələrə təşəkkür edib. Hələ bu qərarı qəbul etməyən dövlətləri də tez bir zamanda bu addımı atmağa çağırıb. Ərdoğanın BMT-də çıxışı sərtliyi ilə seçilib. Onun sözlərinə görə, Qəzzada öldürülən dinc əhalinin sayı 60 mini keçib. Ölənlərin 20 mindən çoxu uşaqlardır.

### FƏLƏSTİNİN TANINMASI SÜLHƏ YOL AÇACAQMI?

Bəs Fələstinin sürətli tanınması regionda sülhə yol açacaqmı? Çoxları hesab edir ki, ABŞ və İsrailin razılığı olmadan ciddi dəyişikliyə nail olmaq çətindir. Qərb dövlətlərində Fələstinin dövlət müstəqilliyini tanıması tendensiyası artsa da, bu siyasi, diplomatik, hətta hüquqi dəstəyin İsrail-Fələstin, yaxud İsrail-HƏMAS müharibəsinin yaxın zamanda başa çatması ilə nəticələnəcəyi inandırıcı görünmür. Maraqlı bir məqam da var: Fələstini tanıyan dövlətlər onun sərhədlərini hansı əsaslarla qəbul edirlər? 1949-cu ildə keçmiş Fələstin ərazisində iki dövlətin yaradılması və Qüdsə ayrıca status verilməsi ilə müəyyən olunmuş sərhədlər nəzərdə tutulur, yoxsa 1967-ci il müharibəsindən sonrakı reallıqlar? Bu, hələ də tam aydın deyil və yaqin ki, yaxın zamanlarda daha dəqiq bəlli olacaq. İsrailin siyasətinə nəzər salanda görürük ki, Təl-Əviv prosesi yalnız mövcud danışıqlarla yekunlaşdırmaq istəmir.

Ekspertlər qeyd edirlər ki, bu tanımalar ilk baxışda Fələstin üçün siyasi-diplomatik uğur kimi görünə bilər. Amma bu uğurun praktik müstəviyə keçməsi real deyil. Ən çox da ABŞ-nin İsrailin mövqeyini dəstəkləməsi vəziyyəti çətinləşdirir. Prosesin yeni gərginlik və qarşıdurmalarla müşayiət olunacağına da eyham vurulur.



### MÜSTƏQİL DÖVLƏTƏ GEDƏN YOL

Məlumat üçün bildirək ki, İsrail-Fələstin münaqişəsi 75 ildir davam edir. Ərazi 1920-1948-ci illərdə Millətlər Liqası adından verilən mandatla Böyük Britaniya tərəfindən idarə olunan Fələstin adlanıb. 1947-ci il noyabrın 29-da BMT Baş Assambleyası Fələstin ərazisində yəhudi və ərəb dövlətlərinin qurulması haqqında 181 saylı qərar qəbul edib. Qərara əsasən, Fələstinin 54 faizi yəhudi, 45 faizi isə ərəb dövlətinin payına düşürdü. Qüds şəhərinin yerləşdiyi qalan bir faiz ərazi isə beynəlxalq ərazi olmalı idi. Fələstin dövlətinin yaradılmasına gəldikdə, bu, 1988-ci il noyabrın 15-də Əlcəzairdə Fələstin Milli Şurasının fövqəladə iclasında elan edilib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# "TIXAC VERGİSİ" ÖDƏYƏCƏYİK

**Gün ərzində ətraf ərazilərdən Bakıya 300 mindən çox avtomobil daxil olur. Bunlardan 100 mindən çoxu Sumqayıt-Xırdalanın, 200 min avtomobil isə ətraf ərazilərin payına düşür. Bu yükü azaltmaq, yollarda hərəkəti daha rahat tənzimləmək üçün "tıxac vergisi"nin tətbiqi gündəmdədir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Bakının mərkəzinə giriş ödənişli olacaq. Bu, Prezident İlham Əliyevin imzaladığı "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanda öz əksini tapıb.

Fərmana əsasən, Nazirlər Kabineti üç ay müddətində paytaxtın inzibati ərazisində ödənişli hərəkət zonalarının yaradılması və bu zonalara daxil olmağa görə ödənişin məbləği ilə bağlı təkliflərini hazırlayıb Prezidentə təqdim etməlidir. Qanunvericilikdə nəzərdə tutulur ki, ödənişli zonalara daxilolma haqqı "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun maliyyələşmə mənbələrindən biri olacaq.

Bəs bu sistem necə reallaşacaq? Nəzarət hansı üsullarla həyata keçiriləcək? Bu zonalara giriş haqqı nə qədər olacaq?

**"BAKIYA 300 MİNDƏN ÇOX AVTOMOBİL DAXİL OLUR"**

Məsələ ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev bildirib ki, yeni yanaşma ilkin olaraq Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində nağdsız ödəniş sisteminə keçirilmiş sıxılmış təbii qazla və elektrik mühərriki ilə təchiz edilmiş avtobuslara tətbiq ediləcək: "Gəncə şəhərinin inzibati ərazisinə münasibətdə, həmçinin istehsal tarixi 2025-ci il yanvarın 1-dən sonra olan dizel mühərrikli avtobusların sistemin əhatə dairəsinə daxil edilməsi nəzərdə tutulub. Gün ərzində ətraf ərazilərdən Bakıya 300 mindən çox avtomobil daxil olur. Bunlardan 100 mindən çoxu Sumqayıt-Xırdalanın payına düşür. 200 min avtomobil isə ətraf ərazilərdən Bakı şəhərinə daxil olur".

**"BU, TEXNOLOJİ BAXIMDAN MÜMKÜNDÜR"**

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, bu sistemin ölkəmizdə reallaşdırılması heç də çətin deyil. O vurğulayır ki, dünyada bununla bağlı analoji nümunələr mövcuddur: "İndi texnologiyalar inkişaf edib və texniki həllər rahatlıqla mümkündür. Burada heç bir çətinlik yoxdur. Həm ödənişli zonaların tərtibatı, həm həmin zonalara girişdən əvvəl ödənişlərin həyata keçirilməsi, həm də ödəniş etməyənlərin cərimə edilməsi texnoloji baxımdan realdır".

## "Ödəniş vətəndaş üçün əlçatan səviyyədə olacaq"

Mütəxəssis düşünür ki, ödənişli zonalar sıxlıq yaşanan, yüklənmiş magistrallarda ola bilər: "Məbləğlər hələ dəqiqləşməyib. İlk olaraq monitorinq aparılacaq, sosial və iqtisadi təsirlər qiymətləndiriləcək. Bundan sonra ödənişin məbləği açıqlanacaq. Amma yəqin ki, vətəndaş üçün əlçatan səviyyədə olacaq. Burada bölgü də aparmaq olar. Məsələn, hüquqi şəxslərlə fiziki şəxslərin ödədiyi məbləğ fərqli ola bilər. Bundan əlavə, gündəlik, aylıq və illik ödəniş paketlərinin tətbiqi də mümkündür".

**"BU YOLLA SIXLIĞIN QARŞISI ALINIR"**

Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev deyir ki, böyük ehtimalla şəhərin mərkəzi hissələrinə girişlərdə ödəniş tətbiq edilməsi nəzərdə tutulub: "Məqsəd həmin ərazilərə giriş-çıxışların sayını məhdudlaşdırmaq və tıxacları azaltmaqdır. Dünya təcrübəsində bu model mövcuddur və adətən "tıxac vergisi" adlanır. "Tıxac vergisi" iri şəhərlərin mərkəzi və ya sıx hərəkətli hissələrinə avtomobillə girişə görə tətbiq olunan ödənişdir. Bu verginin məqsədi nəqliyyat sıxlığını azaldaraq sürücüləri alternativ yollar və ya ictimai nəqliyyata yönəltmək, avtomobil sayının azalması ilə havaya atılan tullantıları azaltmaq və şəhər nəqliyyatını tənzimləməkdir. Əsasən şəhərin mərkəzi zonaları ödənişli elan olunur. Ödəniş etməyənlər cərimələnir. Bunun əsas mahiyyəti odur ki, işi olmayan və alternativ marşrutlardan istifadə edə biləcək sürücülər mərkəzi zonalara daxil olmasın, bunun nəticəsində də orada yaşayan və işləyən insanların hərəkəti rahatlaşsın. Bu yolla sıxlığın qarşısı alınır".

## "Giriş haqqının beş manat ola biləcəyi ehtimal olunur"

Ödənişin məbləğinə gəldikdə isə mütəxəssis qeyd edir ki, giriş haqqının beş manat olacağı ehtimal edilir: "Ödəniş məbləği hələ dəqiqləşməyib. Çünki monitorinq aparılmalı, sosial və iqtisadi təsirlər qiymətləndirilməlidir. Bundan sonra dəqiq rəqəm elan ediləcək. Amma təxminən giriş haqqının beş manat civarında ola biləcəyi ehtimal olunur".

Böyük şəhərlərdə "ödənişli zonalar" artıq uzun müddətdir tətbiq olunur. Məsələn, Londonda 2003-cü ildən etibarən mərkəzi zonaya giriş üçün "congestion charge" (tıxac vergisi) tətbiq edilir. Hazırda bu ödəniş gündəlik 15 funt (təxmini 35 manat) təşkil edir. Məqsəd sıxlığı azaltmaq və ictimai nəqliyyata tələbatı artırmaqdır.

İsveç paytaxtı Stokholmda 2007-ci ildən bəri oxşar sistem mövcuddur. Giriş haqqı günün saatından asılı olaraq dəyişir, pik saatlarda daha yüksək olur. Bu sistem Sinqapurda 1975-ci ildə tətbiq olunub. Bu gün ERP adlı elektron sistemlə idarə olunur və tariflər real vaxt rejimində sıxlığa uyğun tənzimlənir. Bu modelin əsas məqsədi şəhər mərkəzlərində avtomobil yükünü azaltmaq, hava çirklənməsini minimuma endirmək və ictimai nəqliyyatdan istifadəyə stimul verməkdir.



Eldəniz Cəfərov — Yasin Mustafayev

BANK KARTLARI İLƏ BAĞLI FIRILDAQÇILIQ HALLARI HƏLƏ DƏ AKTUAL OLARAQ QALIR

# STATİSTİKA YOXDUR, BƏS OĞURLUQ?

**2024-cü ildə kart fırıldaqçılığı nəticəsində vətəndaşlara təxminən 22 milyon manat zərər dəyib. 2025-ci ilin ilk dörd ayında isə bu rəqəm altı milyon manatı keçib. Deməli, bank kartları ilə bağlı fırıldaqçılıq halları hələ də mövcuddur, sadəcə indi əvvəlki qədər açıq görünmür.**

### KART FIRILDAQÇILIĞI NƏTİCƏSİNDƏ VƏTƏNDAŞLARA DƏYƏN ZƏRƏR

2025-ci il yanvar-aprel: **6 mln manat**

2024-cü il: **22 mln manat**






ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bir müddət əvvəl bank kartlarından oğurluqlar ölkənin ən çox müzakirə edilən mövzularından idi. Demək olar ki, hər gün Daxili İşlər Nazirliyi (DİN) kart fırıldaqçılığı ilə bağlı rəqəmlər açıqlayır, sosial şəbəkələrdə isə onlarla vətəndaş başına gələn hadisələri paylaşırdı. İnsanların hesabından ani şəkildə pulun silinməsi, naməlum şəxslərə kart məlumatlarının ötürülməsi və telefon zəngləri vasitəsilə aldatma halları gündəlik reallığa çevrilmişdi. Hətta bu məsələ o qədər aktual idi ki, ictimai rəydə bank kartından istifadə etmək qorxu və narahatlıq doğururdu. Amma son vaxtlar mənzərə dəyişib: nə əvvəlki kimi statistik məlumatlar açıqlanır, nə də sosial şəbəkələrdə "kartım soyuldu" tipli paylaşımlar gözə dəyir. Sanki problem birdən-birə yoxa çıxıb. Burada təbii olaraq bir sual yaranır: görəsən, bu sakitliyin səbəbi real olaraq fırıldaqçılıq hallarının azalmasıdırmı?

## "HƏR BİR MÜRACİƏT DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR"

DİN-in Mətbuat Xidmətinin əməkdaşı, polis leytenantı Elbrus İbrahimov bildirib ki, internet resursları və sosial şəbəkələrdə vətəndaşların aldatma yolu ilə şəxsi və bank kartı məlumatlarının, daha sonra isə maddi vəsaitlərinin ələ keçirilməsi ilə bağlı polis orqanlarına daxil olan hər bir müraciət diqqət mərkəzində saxlanılır: "Müraciətlər əsasında polis əməkdaşları tərəfindən müvafiq araşdırmalar aparılaraq belə əməlləri törədən şəxslərin yeri müəyyən olunur. DİN tərəfindən kiberdələduzluqla mübarizə sahəsində maarifləndirmə, təbliğat-təşviqat işləri də həyata keçirilir. Respublikanın şəhər və rayonlarında ərazi polis orqanları tərəfindən kibertalamalara qarşı mübarizə üsulları ilə bağlı mütəmadi görüşlər təşkil olunur. Həmçinin əhalinin sıx olduğu məkanlarda, o cümlədən bankomat və ödəmə terminallarının ətrafında bu mövzuda məlumatverici lövhələr asılır, vətəndaşlarla profilaktik söhbətlər aparılır, üzləşə biləcəkləri kibertəhlükələrlə bağlı zəruri məlumatlar verilir".

E.İbrahimovun sözlərinə görə, araşdırmalar zamanı müəyyən edilib ki, vətəndaşlar naməlum xarici nömrələrdən gələn zəng və ya mesajlara inanaraq, dəqiqləşdirmə aparmadan bank kartı hesabları ilə bağlı tanımadıqları şəxslərin istədikləri əməliyyatları yerinə yetirirlər: "Bank kartlarının üzərindəki CVV/CVC kodları, SMS-lə göndərilən OTP şifrələri məxfi məlumatlardır və üçüncü şəxslərlə bölüşdürülməməlidir. Bu məlumatların paylaşılması bank hesablarından pul vəsaitinin oğurlanmasına, vətəndaşın adından kredit və digər maliyyə əməliyyatlarının həyata keçirilməsinə səbəb ola bilər. Bir daha vətəndaşlara müraciət edərək diqqətli olmağa, naməlum nömrələrdən gələn zəng və mesajlara inanmamağa, şübhəli linklərə daxil olmamağa və bank kartı məlumatlarını heç bir halda paylaşmamağa çağırırıq".


İsmayıl Məmmədov

## "XƏBƏRDARLIQLAR İNSANLARDA MÜƏYYƏN DAVRANIŞ DƏYİŞİKLİYİ YARADIB"

Maliyyə və bank məsələləri üzrə ekspert İsmayıl Məmmədov düşünür ki, rəqəmlərdə azalma olsa da, problem hələ də qalmaqdadır: "Rəsmi statistikaya görə, 2024-cü ildə kart fırıldaqçılığı nəticəsində vətəndaşlara təxminən 22 milyon manat zərər dəyib. 2025-ci ilin ilk dörd ayında isə bu rəqəm altı milyon manatı keçib. Deməli, tam səngimə yoxdur. Sadəcə, son dövrdə ictimaiyyətin diqqəti başqa mövzulara yönəldiyi üçün bu mövzu mediada daha az görünür. Mərkəzi Bank və banklar tərəfindən aparılan maarifləndirici kampaniyalar, "OTP-ni paylaşma", "naməlum linkə girmə" kimi xəbərdarlıqlar insanlarda müəyyən davranış dəyişikliyi yaradıb. Amma xüsusən yaşlı və texnologiyadan az istifadə edən qruplar hələ də risk altındadır".

İ.Məmmədovun fikrincə, bu halların qarşısı sosial reklamlar, təlimlər, bankların xəbərdarlıqları, 3D-Secure, iki faktorlu təsdiq, real vaxt bildirişləri, DİN və beynəlxalq əməkdaşlıqla cinayətkarların izlənməsi nəticəsində alına bilər: "Vətəndaş, bank, hüquq-mühafizə orqanları hamısı birgə məsuliyyət daşıyır. Çünki vətəndaş kart məlumatlarını qorumalıdır. Bank sistemlərini daim yeniləməlidir. Hüquq-mühafizə orqanları fırıldaqçı şəbəkələri ifşa etməlidir".

Bank eksperti biometrik ödənişlərin təhlükəni azalda biləcəyini bildirdi: "Çünki unikal identifikasiya oğurlanması çətin olan üsuldur. Amma risk sıfır deyil. Biometrik məlumat sızarsa, onu dəyişmək olmur. "Deepfake" texnologiyaları (süni intellekt və dərin öyrənmə ("deep learning") alqoritmləri vasitəsilə insanın üzünü, səsini və hərəkətlərini reala çox oxşar formada saxtalaşdırmaq) da əlavə təhlükə yarada bilər. Ona görə biometrik sistemlər mütləq iki və ya çox faktorlu autentifikasiya ilə birlikdə işləməlidir".

## "RƏQƏMSAL TƏHLÜKƏSİZLİK DAİM İNKİŞAF ETDİRİLMƏLİDİR"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov isə qeyd etdi ki, bank kartları ilə bağlı fırıldaqçılıq halları hələ də mövcuddur, sadəcə indi əvvəlki qədər açıq görünmür: "Statistikanın az paylaşılması və sosial şəbəkələrdə bu barədə statusların azalması hələ problemin tam həll olunduğu anlamına gəlmir. İnsanların maariflənməsi, bankların təhlükəsizlik sistemlərinin təkmilləşdirilməsi və hüquq-mühafizə orqanlarının operativ fəaliyyəti müəyyən qədər nəticə verib. Əslində bu tip risklərin qarşısının alınması üçün üç əsas faktor önəmlidir. Hüquq-mühafizə orqanlarının mübarizə tədbirləri, bankların texnoloji və təhlükəsizlik mexanizmləri, eləcə də vətəndaşların öz məsuliyyəti. Hansısa birinin zəif qalması bütövlükdə sistemdə boşluq yarada bilər".

E.Abbasovun sözlərinə görə, gələcəkdə nağdsız ödənişlərin artması müəyyən klassik fırıldaq üsullarını azalda bilər, amma eyni zamanda yeni kiber risklər də ortaya çıxacaq: "Buna görə də rəqəmsal təhlükəsizlik daim inkişaf etdirilməlidir. Biometrik identifikasiya texnologiyalarının (barmaq izi, üz tanıma və s.) geniş tətbiqi ilə riskləri minimuma endirə bilərik".

PROFESSOR BƏDİRXAN ƏHMƏDLİ: “ƏDƏBİYYAT DƏRSLİKLƏRİNİN YAZILMASINDA HEÇ VAXT AMEA-NIN ƏDƏBİYYAT İNSTİTUTU İŞTİRAK ETMƏYİB”

# “DƏRSLİKLƏR TEZ-TEZ DƏYİŞMƏMƏLİDİR”

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

“Orta məktəb dərsliklərinə bu qədər xərc çəkilir, amma ali məktəb dərsliklərinə bir manat da xərclənmir. Təkcə dərslik deyil, dərs vəsaitləri, metodik vəsaitlər, proqramlar da həmçinin...”

Yeni tədris ili başladı. Özü ilə bərabər ənənəvi və hazırkı dövrdən doğan çoxlu suallar da gətirdi.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, Xəzər Universiteti Dillər və Ədəbiyyatlar Departamentinin müəllimi, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli ilə müsahibəmizdə hazırkı orta və ali təhsil, o cümlədən elm mühitimizə nəzər salmağa çalışdıq:



### “UŞAQLARI BİR AZ ÇOX YÜKLƏYİRİK”

**● Bədirxan müəllim, yeni tədris ili başlayıb. Müsahibəmizə ibtidai siniflərdən başlayaq: tez-tez valideynlərin şikayətləri eşidilir. Uşaqlar bel çantasının yükü altında əzilir, onların bu qədər dərsliyi daşımasına ehtiyac yoxdur. Sizin yanaşmanız necədir?**

● Məncə də uşaqları bir az çox yükləyirik. Həm qohumlardan, həm tanışlardan bu barədə eşidirəm. Nəvəm Avropada yaşayır, onlar dərsə çox kitab aparmırlar. Uşaqlar məktəbə gedirlər, məşğul olurlar, heç nəyi evə gətirmirlər. Biz həm orta, həm ali məktəblərdə Avropa üsullu tədrisə keçmişik. Əgər keçmişiksə, buna azərbaycansayağı yox, avropasayağı keçmək yaxşı olar. Biz isə bir hissəsini keçirik, bir hissəsini sonraya saxlayırıq. Nəticədə hər hansı həqiqətə 50 ildən sonra gəlib çatırıq, halbuki ona daha tez çata bilərik.

### “TƏLƏBƏLƏR DƏRSLİKLƏRİN SURƏTİNİ ÇIXARIB OXUYURLAR”

**● Elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ili ilə bağlı keçirdiyi brifinqdə “oturub uşaqlara normal dərslik yazmaq lazımdır”, - deyib.**

● Mən naziri müxtəlif tədbirlərdə dinləmişəm. Çıxışlarında çox gözəl məsələlər qaldırır. Amma problem ondadır ki, bu məsələlərin heç biri həyata keçmir. Hər il yeni dərsliklər yazılır. Bilinmir o dərsliklər necə ortaya çıxır. Dərsliklərə böyük pullar xərclənir, müəlliflərə qonorarlar verilir. Niyə sonunda ortaya pis dərsliklər çıxır? Məncə, bu barədə düşünmək lazımdır. Görünür, doğru müəllif seçilmir. Tələbələrim olmuş, indi isə orta məktəblərdə işləyən ədəbiyyat müəllimləri ilə söhbət edirəm, onların hamısı dərsliklərdən narazıdır. Ədəbiyyat dərsliklərinin yazılmasında heç vaxt AMEA-nın Ədəbiyyat İnstitutu iştirak etməyib. Orta məktəb dərsliklərinə bu qədər xərc çəkilir, amma ali məktəb dərsliklərinə bir manat da xərclənmir. Təkcə dərslik deyil, dərs vəsaitləri, metodik vəsaitlər, proqramlar da həmçinin... Bu, çox düşündürücü məsələdir. Təhsil təhsildir. Mənə elə gəlir ki, ali təhsil nazirliyin marağında deyil. 25-30 ildir ki, ali məktəbdə dərs deyirəm, mühazirə oxuyuram, eləcə də magistraturada dərs deyirəm. Belə görürəm ki, nazirlik ali məktəblərdə təhsillə ya maraqlanmır, ya da az maraqlanır. Və yaxud ali məktəblərlə maraqlansa da, dərsliklərlə maraqlanmır. Kim nə istəyir yazır. Yaxşı dərsliklərə nə universitet rəhbərləri, nə QHT Agentliyi tərəfindən dəstək verilir. Bir dərsliyin yazılması dəstək tələb edir. Ayrı-ayrı müəlliflər dərslik yazır, 100-200 nüsxə çap edirlər. O dərsliklər bir-iki ilə bitir, sonrakı nəsillər də ondan xəbərsiz olurlar. Tələbələr dərsliklərin surətini çıxarıb oxuyurlar. Onlar çox zaman ali təhsili kitabsız başa vururlar. Həmişə tələbələrə məsləhət görürəm ki, öz kitabxananız olsun, surət çıxarmayın. Bu mənada hesab edirəm ki, ali məktəblərdə proqramların yazılmasına nazirlik, universitet rəhbərliyi dəstək olsun. Dünyanın tanınmış universitetlərində kitab çatışmazlığı yoxdur. Bizim universitetlərdə isə tələbələr dərslik sarıdan çox əziyyət çəkirlər. Həmişə də bununla bağlı şikayətlənirlər. Kitab yoxdursa, məcbur qalıb məlumatları “Vikipediya”dan götürəcəklər. Orada da əsasən ümumi məlumatlardır. Beləliklə, tələbələrin təsəvvürü orta məktəbdə öyrəndikləri olacaq, təfəkkürləri inkişaf etməyəcək.

> “Tələbəyə kitab satmaq olmaz, universitetlər, kitabxanalar, Elm və Təhsil Nazirliyi də dərslikləri almır. Sən də düşünürsən ki, kimin üçün, nə üçün yazırsan?”



**● Tələbələr dərsə kitab əvəzinə mobil telefonla gedirlər. “Dəftər-kitabın hanı?” soruşanda “hamısı buradadır”, - deyə telefona işarə edirlər. Doğrudanmı, məlumatların hamısı bir tətbiqdədir?**

● Yox, hamısı bir tətbiqdə deyil. Orada o zaman olar ki, onların hamısını yerləşdirəsən. Bütün Azərbaycan ədəbiyyatının xəzinəsi orada necə ola bilər? Onu kim, nə vaxt yerləşdirib? Bunun üçün fundamental iş görülməlidir. Azərbaycanın həm elmi, həm bədii ədəbiyyatı hələlik tam olaraq internetdə yoxdur. Bu materialların tam elektron bazasını yaratmaq üçün uzun zaman və çalışma lazımdır.

### “ÖZ PULUMUZLA KİTAB ÇAP ETDİRİRİK”

**● Əslində sovet dövründə də ali təhsil müəssisələrində dərslik, metodik vəsait çatışmazlığı olub. Sizcə, bu məsələ niyə köklü həllini tapa bilmir?**

Mən Azərbaycan Dövlət Pedaqoji Universitetində oxumuşam. O vaxt müəllimimiz akademik Feyzulla Qasımzadənin “XIX əsr Azərbaycan ədəbiyyatı tarixi” kitabı çap olunmuşdu. Biz 250 tələbə idik. Hamımız onun kitabını aldıq. Kitab təxminən 20 min tirajla çap olunmuşdu. O, uzun müddət işləməsəydi də, həmin kitabın qonorarı ilə dolana bilərdi. Biz isə heç bir qonorar almırıq, aldığımız cüzi maaşı isə proqram, dərs vəsaiti və dərsiliklərə xərcləyirik.

**● Deməli, motivasiya da yoxdur...**

● Heç bir motivasiya yoxdur. Öz pulumuzla kitab çap etdiririk. Ondan sonra tələbələri dərsliklə tanış etmək lazımdır. Amma bizim belə imkanımız yoxdur. Tələbəyə kitab satmaq olmaz, universitetlər, kitabxanalar, Elm və Təhsil Nazirliyi də dərslikləri almır. Sən də düşünürsən ki, kimin üçün, nə üçün yazırsan? Əgər səndə motivasiya olsa, onu yenidən işləyər, təkmilləşdirər, 5-10 ildən bir yenidən çap etdirərsən. Dərslik ayrıca bir janrdır, monoqrafiya deyil. Mən üç cildlik “XX əsr Azərbaycan ədəbiyyatı tarixi” nəşrində dərsliklə monoqrafiyanı birləşdirmişəm. Bu, həm də magistrantlar üçündür. Kitabı məndən doktorantlar, tədqiqatçılar da istəyir. Bu da onu göstərir ki, cəmiyyətin bu cür dərsliklərə ehtiyacı var.

**● Sizcə, dərsliklər neçə ildən bir yazılmalıdır?**

● Məncə, dərsliklər tez-tez dəyişməməlidir. Heç olmasa 10-15 ildən bir yazılsa, yaxşı olar. Çünki müəyyən bir nəsil gəlir. O nəsil eyni təfəkkürlə böyüməlidir. Bizdə isə hər yeni nazir gəldikdə dərsliklər də dəyişir. Bu, bəzən hər il, bəzən də 2-3 ildən bir olur. Hər il test kitabları yenilənir. Bunun nə mənası var? Kimlərsə bunda maraqlıdır, yeni bir şeyi testə əlavə edir, köhnələr atılır, yenisi çap edilir. Hamısı kağız və vaxt itirməkdən və xərcdən başqa bir şey deyil.

**● Müəlliflər və sifarişçilər bunu adətən tez-tez dəyişən hadisələr, dünyadakı qlobal yeniliklərlə və s. izah edirlər...**

● Ədəbiyyatda hansı qlobal dəyişikliklər baş verib ki? Baş versə, o hadisələr əvvəlcə ədəbiyyata daxil olmalı, öz təsdiqini tapmalı, sonra onu dərsliyə və ya testə daxil etməliyik.




Fotolar: Rüfət Mikayılov/ Global Photostock

## “TƏLƏBƏLƏR UNİVERSİTETLƏRDƏ KİTABLA GÖRÜŞƏ BİLMİR”

**● Qeyd etmisiniz ki, “bir çox fənlər üzrə dərslik yazılmır”. Bunlar əsasən hansı fənlərdir? O fənlərin diqqətdən kənarda qalmasını nə ilə əlaqələndirirsiniz?**

● Bütün universitetlərdə filologiya fakültələrində tələbələr “XIX əsr Azərbaycan ədəbiyyatı tarixi”ni Feyzulla Qasımzadənin kitabından oxuyurlar. Bu kitab bizim tələbə olduğumuz dövrdə - 1970-ci illərdə yazılıb. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət, ideoloji sistem başqa idi. Feyzulla müəllim böyük tədqiqatçı idi. Amma yazıldığı dövr ideoloji idi, bu üzdən kitab da başdan-ayağa ideologiya idi. O vaxtdan 50 il keçib. Bu müddətdə nə qədər ədəbi hadisələr, şəxsiyyətlər, faktlar üzə çıxıb. İndiki tələbələr həmin dərsliyi oxuyarkən yeni ədəbi hadisə və faktlardan xəbərləri olmur. Bu, çox pis tendensiyadır. Bəs niyə yazılmır? Çünki kimsə fikirləşir ki, gecəsini gündüzünə qatıb yazacaq, sonra öz hesabına çap etdirəcək, sonra da kitab əlində qalacaq. İndi tələbələr universitetlərdə kitabla görüşə bilmir. Bu görüşü təşkil etmək lazımdır. Universitet deyəndə bizdə bir bina tapıb içərisinə tələbə doldurmaq başa düşülür. Onun maddi-texniki bazası və s. heç kimə maraqlı deyil. Əslində universitet işlək bir orqanizm olmalıdır. Tələbələri təkcə auditoriyaya salmaq yox, daim yeniliklərlə, müəlliflərlə, alimlərlə, Nobel mükafatçıları ilə görüşdürmək lazımdır. Klassik üslubda mühazirə demək dövrü çoxdan keçib. Mən Türkiyədə - Qars Qafqaz Universitetində dərs deyəndə orada mühazirə-seminar anlayışı yox idi, ancaq dərs var idi. Dərsdə də yaxşı müzakirələr gedirdi.

### “GƏNCLƏRİN ELMƏ MARAĞI ÇOX AZDIR”

**● Müasir tələbələrin kitabxana ilə münasibətləri necədir?**

● Çox yaxşıdır. Elmi-tədqiqat işimlə bağlı bəzən Milli Kitabxanaya gedirəm. Axtarış aparan tələbələr görürəm. O gün kitablarımın hərəsindən bir nüsxə kitabxanaya verdim. Düşünürəm ki, kitab universitet kitabxanalarında olmalıdır. Nə üçün universitet kitabxanası ola-ola tələbə vaxt itirib Milli Kitabxanaya getməlidir? Bizdə hələ də dünya ədəbiyyatı dərsliyi yoxdur. Dünya ədəbiyyatı anlayışı özü dağınıqdır, sistemli bir dərslik yazılmayıb. Kimsə bu işin altına girib onu sistemli şəkildə tələbələrə təqdim etməlidir.

**● Bəs gənclərin elmə marağı nə qədərdir?**

● Gənclərin elmə marağı çox azdır. Çünki hamı nəticəni fikirləşir. Düşünürlər ki, müdafiə edəndən sonra kim olacağam, harada işləyəcəyəm və nə qədər maaş alacağam? Ona görə gənclər bu sahəyə az maraq göstərirlər. Gələnlərin də 95 faizi xanımlardır. Elmi təfəkkürün formalaşması üçün yeni bir yol xəritəsi hazırlanmalıdır.

### “BİZ HƏR ŞEYİN GÜNAHINI ƏDƏBİYYATDA GÖRÜRÜK”

**● Yenə də nazirin brifinqdəki fikirlərinə qayıdıram. O qeyd etdi ki, müəllimlər ənənəvi tədris sistemini dəyişməlidir. Açıq şəkildə bildirdi ki, “müəllim şagirdə şeiri əzbərlətməklə onu əmək bazarına hazırlamır”. Əmək bazarına daxil olmaq üçün lazım olan fənlər sırasında ədəbiyyatın adı çəkilmir...**

● Mənə elə gəlir ki, son 20 ildə indiki dərsliklərin yazılmasında elə məhz bu yönləndirmə əsas tutulub: orda nə şeir, nə bədii düşüncə var. Kim deyir ki, kompüteri öyrənən adam şeir bilməməli və ya əzbərləməməlidir? Bu, bədii-estetik zövqdür. İnsanın formalaşmasında ədəbiyyatın çox böyük rolu var. Dünyada başqa xalqların orta məktəb dərsliklərinə nəzər salanda orada da şairlər, şeirlər görürsən. Elə bilirik ki, şeirləri ancaq biz öyrədirik. Bəzən hər şeyin günahını ədəbiyyatda görürük. Qətiyyən elə deyil. Ədəbiyyat həmişə olmalıdır. Ədəbiyyat insan, vətəndaş formalaşdırır. Biz tədrisdəki səhvlərimizi ədəbiyyatın boynuna qoya bilmərik.

**● Çağdaş, müasir dünya ilə, süni intellektlə ayaqlaşmağa nə qədər hazırıq?**

● Ayrı-ayrı fərdlər hazırdır, ancaq bütövlükdə cəmiyyət hələ hazır deyil. Çox istedadlı gənclərimiz var. Azərbaycandan kənarda istənilən universitetə daxil olur, hətta həmin ölkənin vətəndaşlarından da böyük uğurlar əldə edirlər. Çatışmayan odur ki, o istedadlar üçün vətəndə şərait yarada bilmirik. Çoxunun ixtisası üzrə ölkədə iş yoxdur. Orada öyrəndikləri təcrübəni gətirə bilərlər. Mənim ümidim onlaradır.

**● Təcrübəli alim kimi sadalanan problemlərdən çıxış yolunu nədə görürsünüz?**

● Universitetlərə kompleks münasibət dəyişməli, müəllimlərə sərbəstlik verilməli, dərs vəsaitləri, dərsliklər, proqramlar nazirlik və ya universitetlər hesabına çap edilməlidir. Vəsaitlər çox ciddi şəkildə oxunmalı, keyfiyyət tələb olunmalıdır. Dərsliklər, vəsaitlər tələbələr üçün əlçatan olmalıdır. Tələbələrlə müəllimlərin münasibətində yeni bir mərhələ yaşanmalıdır.

# “YAŞIL ENERJİ HƏFTƏSİ 2025”

Bakıda keçirilən tədbirdə yaşıl enerji layihələri ilə bağlı regional əməkdaşlıq imkanları müzakirə edilib. Qeyd olunub ki, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda hidrogenin tətbiqi məsələlərində lider mövqe tutur.



Bakıda “Yaşıl Enerji Həftəsi 2025: Azərbaycan və Mərkəzi Asiya” tədbiri keçirilib. Tədbir çərçivəsində yaşıl enerji layihələri ilə bağlı regional əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

### “TAM PROQNOZLAŞDIRMA MEXANİZMİNƏ EHTİYAC VAR”

“Azərişıq” ASC-nin külək enerjisi şöbəsinin rəhbəri Rasim Əliyev bildirib ki, Azərbaycanda bərpa olunan enerji mənbələrinin (BOEM) ümumi enerji şəbəkəsinə inteqrasiyası üçün əsas alət olacaq sistemə, həmçinin tam proqnozlaşdırma mexanizminə ehtiyac var: “Bu gün ölkədə BOEM sahəsində çoxsaylı layihələr həyata keçirilir. Bu, gələcəkdə böyük əhəmiyyət kəsb edəcək. İstismar zamanı SCADA-nın məlumatlarına əsaslanan proqnozlaşdırıcı texniki xidmətin istifadəsi vacibdir”.

Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) investisiya mütəxəssisi Vyaçeslav Qordiyenko qeyd edib ki, Azərbaycan üçün başlıca prioritet bərpa olunan enerji sahəsinə investisiyaların təmin edilməsi və şəbəkə infrastrukturunun inkişafıdır. Onun sözlərinə görə, Azərbaycanda artıq 1,7 giqavatt güc mövcuddur və 2027-ci ilədək olan dövrü əhatə edən layihələr üzrə bölüşdürülüb:”Dünya Bankı Qrupu ilə sıx əməkdaşlıq çərçivəsində bərpa olunan enerji sahəsində irimiqyaslı investisiya proqramının həyata keçirilməsi ümidverici faktdır”. Ofşor layihələrə gəlincə, ekspert qeyd edib ki, 200 meqavat gücün yaradılması müsbət qarşılanır: “Lakin vurğulamaq vacibdir ki, bu, pilot layihə deyil”.

### “DƏNİZ SUYUNDAN İSTİFADƏ ƏLAVƏ XƏRCLƏR TƏLƏB EDİR”

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətova vurğulayıb ki, hidrogen istehsalında Xəzər dənizinin suyundan istifadə əlavə xərclər tələb edir. “Bizim nöqteyi-nəzərimizdən, hidrogenlə bağlı aparılan araşdırmalarda suyun istifadəsi aspekti də vacibdir, çünki Azərbaycan üçün sudan səmərəli istifadə xüsusilə önəmlidir. Bizim araşdırmamıza görə, Xəzər dənizinin suyundan istifadə etmək olar. Bəli, bu, şor sudur və açığı, yumşaq deyil, ona görə də təmizlənməsi lazımdır. Bu isə əlavə xərclər deməkdir. Bundan başqa, duzlu su ilə bağlı problem yaranır, onu Xəzər dənizinə geri axıtmaq olmaz, çünki orada artıq bir çox ekoloji problemlər mövcuddur”, - o qeyd edib.

### “Azərbaycan lider mövqe tutur”

MAIRE şirkətinin Mərkəzi Asiya, Xəzər və Türkiyə üzrə vitse-prezidenti Nikkolo Heilpernin sözlərinə görə, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda hidrogenin tətbiqi məsələlərində lider mövqe tutur: “Bizim üçün hidrogen diplomatiyası siyasi səviyyədən bir qədər fərqli mövqedədir. Bu, daha çox sənaye, istehlakçılar və dövlət qurumlarını dəyər yaratmaq üçün necə birləşdirmək lazım olduğu ilə bağlıdır. Bu dəyər ölkədə qalmalıdır - dövlət və əhali üçün, eyni zamanda şirkət üçün də rifah yaratmalıdır. Biz səhmdarlara gəlir gətirməliyik. Lakin eyni zamanda işlədiyimiz ölkələrdə də sərvət yaratmalıyıq. Buna görə də, bizim üçün hidrogen diplomatiyası bütün maraqlı tərəflər arasında bilik mübadiləsinə və uzunmüddətli layihələrin inkişafına imkan verən əməkdaşlıq platformasıdır. Azərbaycanda artıq digər sahələrdə də güclü tərəfdaşlığımız var” - o qeyd edib.



# SOCAR İtaliya şirkətindən pay alır

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə “Italiana Petroli S.p.A” şirkətinin məxsus olduğu “MIP S.p.A” şirkəti arasında səhmlərin alışı ilə bağlı müqavilə imzalanıb. “Report” xəbər verir ki, bu, Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (AIIF 2025) çərçivəsində baş tutub.

Sənədi SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Italiana Petroli S.p.A”nın İdarə Heyətinin sədri Uqo Braçetti Peretti imzalayıb. Müqavilə SOCAR-ın Avropanın enerji bazarındakı mövqeyini gücləndirəcək.

Bundan başqa, AIIF 2025 çərçivəsində “EelElectric” MMC ilə elektrik mühəndisliyi və energetika sahəsində ixtisaslaşmış İsveç-İsveçrə transmilli korporasiyası “ABB Group”un Türkiyə nümayəndəliyi arasında Modul Panel Sistemlərinin quraşdırılmasına dair müqavilə imzalanıb. Sənədi “EelElectric”in direktoru Vüsal Mirzəyev və “ABB Group Türkey”in ölkə meneceri Mahmud Rzayev imzalayıb. Layihə elektrik infrastrukturu sahəsində texnoloji inkişafı dəstəkləyəcək.

# “Nar” inklüziv intellektual turnir təşkil edib

Sərfəli mobil operator “Nar”ın dəstəyi ilə Azərbaycanda ilk dəfə nitq və eşitmə məhdudiyyətli gənclər üçün “Zəka Fest” inklüziv intellektual oyun turniri təşkil olunub. Beynəlxalq Jest Dili Gününə həsr edilən bu layihə “Şəkərbura Şou”nun təşəbbüsü, “Karlara Dəstək” İctimai Birliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İctimai Televiziya və digər tərəfdaşların dəstəyi ilə həyata keçirilib. Turnirin əsas məqsədi eşitmə məhdudiyyətli uşaqların sosial inteqrasiyasını gücləndirmək və yaradıcılıq bacarıqlarını inkişaf etdirməklə yanaşı, onlar üçün inkişafetdirici oyunların əlçatanlığını təmin etməkdir.




Turnirdə ümumilikdə yeddi komanda mübarizə aparıb. Beş saat davam edən intellektual marafon yeddi raund və final mərhələsindən ibarət olub. İştirakçılar komanda işi və fərdi düşünmə bacarıqlarından istifadə edərək müxtəlif sualları cavablandırıblar. Yarışın nəticəsinə əsasən “Uğur” komandası birinci, “Qızıl” ikinci, “Cəsur” isə üçüncü yerə layiq görülüb. Qalib və digər iştirakçı komandalar “Nar” tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılıb.

Qeyd edək ki, “Nar” nitq və eşitmə məhdudiyyətli şəxslərin informasiya və ünsiyyət imkanlarının artırılması istiqamətində həyata keçirdiyi layihələrlə beynəlxalq səviyyədə tanınır. Şirkət bu sahədəki sosial məsuliyyət təşəbbüslərinə görə nüfuzlu “Stevie” biznes mükafatına layiq görülüb. Yeni jest dili mobil tətbiqinin dəstəklənməsi də “Nar”ın bu istiqamətdə uzunmüddətli fəaliyyətinin məntiqi davamıdır və inklüziv cəmiyyətin qurulmasına töhfəsini daha da gücləndirir. Mobil operatorun dəstəyi ilə gerçəkləşdirilən bütün sosial layihələr haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2000
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# HİBRİD AVTOMOBİL ALMAQ İSTƏYƏNLƏR TƏLƏSMƏLİDİR

Hibrid avtomobillərin gömrük rüsumu güzəşti bu ilin sonu başa çatır. Bəzi ekspertlər güzəştlərin gələn il də davam edəcəyi, bəziləri isə tamamilə bitəcəyi qənaətindədir. Güzəştin uzadılmaması nəticəsində avtomobil bazarında qiymətlərin artacağı proqnozlaşdırılır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda son illərdə avtomobil bazarında yaşıl texnologiyalara keçid istiqamətində ciddi dönüş müşahidə olunur. Hibrid və elektromobillərə artan maraq artıq sadəcə tendensiya deyil. Bu marağın arxasında dövlət tərəfindən tətbiq edilən mühüm gömrük və vergi güzəştləri dayanır. Lakin 2025-ci ilin sonuna doğru bazarda yeni bir mərhələnin başlanğıcı görünür: hibrid avtomobillərə tətbiq olunan güzəştlərin müddəti başa çatır.

### NƏ ƏDV, NƏ DƏ GÖMRÜK RÜSUMU ÖDƏNİLİR

İlk dəfə 2019-cu ildə elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı əlavə dəyər vergisindən (ƏDV) azad edildi. Bu, ölkədə ekoloji nəqliyyat vasitələrinin təşviq olunması baxımından ilk ciddi addım idi. 2022-ci ildən etibarən isə bu güzəştlər daha da genişləndirildi: elektromobillərin idxalı ilə yanaşı, onların satışı da ƏDV-dən azad olundu. Həmin tarixdən etibarən hibrid avtomobillər üçün də güzəştlər tətbiq olunmağa başladı. Vergi Məcəlləsinin 164.1.41-1-ci maddəsinə əsasən, istehsal tarixi üç ildən az olan və mühərrik həcmi 2500 sm³-dən çox olmayan hibrid avtomobillərin idxalı və satışı da ƏDV-dən azad edildi. Bu güzəştlər ilkin olaraq 2025-ci il yanvarın 1-nə qədər qüvvədə idi. 2023-cü ildə güzəşt müddətlərinə yenidən baxıldı və elektromobil və hibrid avtomobillərlə bağlı ƏDV güzəştlərinin müddəti 2026-cı il yanvarın 1-dək uzadıldı. Bu, yaşıl nəqliyyat vasitələrinin bazardakı mövqeyini daha da gücləndirdi. Hazırda elektromobillər idxal edilərkən nə ƏDV, nə də gömrük rüsumu ödənilir – yalnız gömrük xidmət haqqı tətbiq olunur.

Lakin hibrid avtomobillərlə bağlı vəziyyət fərqlidir. Belə ki, bu avtomobillərə ƏDV güzəşti uzadılsa da, gömrük rüsumuna tətbiq olunan güzəştin 2025-ci ilin sonunda bitəcəyi gözlənilir. Bu isə avtomobil idxalçıları və alıcıları üçün dönüş nöqtəsi deməkdir. Güzəştin uzadılmaması halında, 2026-cı ildən etibarən hibrid avtomobillər əvvəlki qaydada – yəni tam rüsumla idxal olunacaq.

Bəs bu, bazara necə təsir edəcək?

Azərbaycan Avtomobil Dilerlər Assosiasiyasının İdarə Heyətinin sədri Eyyub Əliyevin sözlərinə görə, hibrid avtomobillərin güzəşti bitsə də, elektromobillər üçün bu, gözlənilmir: "Gələn ilin əvvəlində, yəni yanvar ayının 1-dən güzəştlər bitir. Hibrid avtomobillər üçün olan güzəşt başa çatacaq. Lakin elektrikli avtomobillər üçün nəzərdə tutulan güzəştlər davam edəcək. Çünki "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sərəncamın beşinci bəndinə görə ölkəmiz təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi adlanır. Yaşıl artım ölkəsi olmaq üçün elektrikli avtomobillərin təşviqi daha da çoxalacaq".



## "İKİNCİ ƏL AVTOMOBİL BAZARI CANLANACAQ"

E.Əliyev hibrid avtomobillərin güzəştinin bitəcəyi təqdirdə bazarda vəziyyətin dəyişəcəyi fikrindədir: "Bazarda vəziyyət indikindən fərqli olacaq. Hazırda ölkədə ikinci əl avtomobil bazarı demək olar ki, çöküb. İkinci əl avtomobillər çox aşağı qiymətə satılır. Əgər hibrid avtomobillərə güzəşt bitərsə, bu zaman ikinci əl avtomobil bazarında da canlanma yarana bilər. Həmçinin digər daxili yanma mühərrikli, yeni 0 kilometrajlı avtomobillərin də satışında bir az təkan olacaq".

### "ELEKTRİKLİ AVTOMOBİLLƏRƏ TAM KEÇİD EDƏ BİLƏRİK"

Sədrin fikrincə, ölkəmiz elektrikli avtomobillərə tam keçid üçün hazırdır: "Amma düşünürəm ki, hibrid maşın bazarında baş verəcək bahalaşmadan sonra insanlar köhnə avtomobillərə deyil, tam elektrikli avtomobillərə müraciət edəcəklər. Elektrikli avtomobillər üçün lazım olan bütün avadanlıqlar mövcuddur. Hazırda ölkənin istənilən yerinə elektromobillə səyahət etmək olur. Yaradılan bu şəraiti nəzərə alaraq deyə bilərəm ki, elektrikli avtomobillərə tam keçid edə bilərik".



Eyyub Əliyev

## "HİBRİD AVTOMOBİLLƏRLƏ BAĞLI ÜÇ EHTİMAL MÖVCUDDUR"

İqtisadçı Pərviz Heydərov isə güzəştlərin davam etməli olduğu qənaətindədir: "Hibrid avtomobillərə olan güzəştin taleyi ilə bağlı üç variant mövcuddur. Ya birdəfəlik ləğv ediləcək, ya rüsumlar tətbiq olunacaq, amma benzin və dizel avtomobillərin rüsumundan daha az olacaq. Bu da bir güzəştdir. Ya da güzəşt müddəti əvvəlki kimi qalacaq. Fikrimcə, hibrid avtomobillərə benzin və dizeldə olan rüsumlar tətbiq olunmayacaq. Yəni ya güzəşti uzadacaqlar, ya da çox az vergi və rüsumlar tətbiq ediləcək. Çünki dünyada da ekoloji problemlər geniş yayılıb. Azərbaycan COP29-a ev sahibliyi etdi. Eyni zamanda yaşıl enerjiyə keçid dövründəyik. Bərpa olunan enerji mənbələrinə ən çox diqqət ayıran ölkələrdən biri Azərbaycandır".



Pərviz Heydərov

İqtisadçı bu sahədə dünyada baş verən proseslərə də toxundu: "Nəzərə almalıyıq ki, bütün dünya hibrid və elektromobillərə keçid edir. Hazırda bütün ölkələrdə təşviq bu yöndədir. Məsələn, Avropa ölkələri bir neçə ilə benzin və dizellə işləyən avtomobillərə tamamilə qadağa qoymağa hazırlaşır. 2030-2035-ci illərdən sonra Avropada bu avtomobillər ümumiyyətlə istifadə olunmayacaq. Dünyada belə proseslər getdiyi bir dövrdə Azərbaycanın kənarda qalması mümkün deyil".

### "BAZARDA BAHALAŞMA GÖZLƏNİLƏNDİR"

P.Heydərovun fikrincə, bazarda bahalaşma gözləniləndir: "Yenə də ölkəmizə hibrid avtomobillər gətiriləcək. Amma rüsumlar benzin və dizel avtomobillərdə olduğu kimi yüksək olarsa, bu zaman alıcılar yenidən benzin və dizel mühərrikli avtomobillərə üz tuta bilərlər. Bu, avtomobil bazarında qiymətlərin kəskin bahalaşması ilə nəticələnə bilər. Əgər güzəşt uzadılmazsa və az da olsa rüsumlar tətbiq edilərsə, bu zaman hibrid avtomobillərin qiymətində 10-15 faiz artım müşahidə ediləcək. Hər bir halda indiki kimi aşağı qiymətə olmayacaq".



UNİVERSİTETLƏRDƏ ÖDƏNİŞLİ ƏSASLARLA OXUYAN TƏLƏBƏLƏRƏ ÇƏTİNLİK YARADAN İSTƏK

# UNİVERSİTETLƏRLƏ VALİDEYNLƏRİ ÜZ-ÜZƏ GƏTİRƏN PROBLEM



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Oğlum Qərbi Kaspi Universitetinin ikinci kursunda ödənişli əsaslarla təhsil alır. Qəbul olan il 2500 AZN olan təhsil haqqını birdəfəlik köçürdük. O vaxt bildirildi ki, növbəti ildən ödənişi iki semestr ərzində və ya hissə-hissə ödəyə bilərsiniz. Amma bu günlərdə oğlumun telefonuna universitetdən gələn "sentyabrın 15-ə qədər təhsil haqqının hamısını ödəməlisiniz" xəbərdarlığı bizi çətin vəziyyətə salıb. Universitetlə əlaqə saxlayıb narazılığımızı bildirdik. Dedilər ki, güzəşt yalnız şəhid ailələrinə, veteranlara, qazilərə olunur, qalan tələbələr ödənişi birdəfəlik köçürməlidir".

Redaksiyamıza daxil olan müraciətlə bağlı sözügedən ali məktəbin fakültə üzrə dekanı ilə əlaqə saxladıq. O da bu ildən belə bir qərar qəbul olunduğunu təsdiqlədi.

Ali təhsil ocaqlarının ödənişli əsaslarla oxuyan tələbələrə münasibətində yaranan bu dəyişikliyin səbəbi həqiqətən ziddiyyətlidir.

### DAXİLİ QAYDALARLA TƏNZİMLƏNƏN MƏSƏLƏ

Elm və Təhsil Nazirliyindən bildirildi ki, Nazirliyin Kollegiyasının 2 sentyabr 2016-cı il tarixli 3-1/1 nömrəli qərarına əsasən, ali təhsil müəssisələrinə ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqlarını təhsil aldıqları müddətdə yarımilliklər üzrə ödəmələrinə şərait yaratmaları tövsiyə edilib: "Eyni zamanda bildiririk ki, təhsil haqqının ödənilmə forması, müddəti və mərhələləri hər bir ali təhsil müəssisəsinin müəyyən etdiyi daxili qaydalarla tənzimlənir. Güzəştlərin tətbiqi də həmin ali təhsil müəssisələrinin səlahiyyətindədir və onlar tərəfindən qəbul edilmiş qərarlara uyğun olaraq həyata keçirilir".

### "SOSİAL ÇƏTİNLİYİ OLAN AİLƏLƏRİ NƏZƏRƏ ALMAQ LAZIMDIR"

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Elnarə Akimovanın fikrincə, təhsil haqqının birdəfəlik ödənilməsi bəzi ailələr üçün ağır olur: "Əlbəttə, ödənişin yarımillik, hətta rüblük bölünməsi daha çevik yanaşmadır və sosial ədalət baxımından da uyğundur". Millət vəkili bildirdi ki, bəzi özəl universitetlər maliyyə sabitliyi üçün daha çox birdəfəlik ödənişi üstün tuturlar: "Onların büdcə planlamasında bu, rahatlıq yaradır. Amma sosial çətinliyi olan ailələri nəzərə almaq lazımdır. Elm və Təhsil Nazirliyinin ödənişlərin hissə-hissə ödənilməsi ilə bağlı tövsiyəsi əslində tələbə hüquqlarının qorunmasına yönəlib. Lakin bu tövsiyə məcburi xarakter daşımadığından bəzi özəl universitetlər istədikləri qaydanı tətbiq edirlər". E.Akimovanın fikrincə, yaxşı olar ki, qaydalar tədris ili başlamazdan əvvəl müqavilədə aydın şəkildə göstərilsin və sonradan dəyişdirilməsin: "Ailələrin ödəmə qabiliyyəti nəzərə alınmalı, təhsil haqqı ödəmələrinin bölünməsi daha çox yayğın olmalıdır. Bu işdə məncə, xüsusi dövlət nəzarəti olmalıdır. Yəni nazirliyin tövsiyəsi tövsiyə olaraq deyil, hüquqi norma kimi tətbiq olunsa, tələbələrin sosial müdafiəsi daha güclü olar".



Elnarə Akimova



**Bəzi özəl universitetlər Elm və Təhsil Nazirliyinin tövsiyəsinə fikir verməyərək təhsil haqlarının hissə-hissə ödənilməsinə razı olmurlar. Bu isə valideynlərin narazılığına səbəb olur.**

### "HƏR BİR ADDIM QANUN ÇƏRÇİVƏSİNDƏ İDARƏ EDİLMƏLİDİR"

Kembric Universitetinin professoru Qərib Mürşüdov Böyük Britaniya universitetlərindəki təhsil haqqı ödənişləri haqqında məlumat verərək bildirdi ki, orada özəl universitetlər azdır: "Əksər və ən məşhur ali təhsil ocaqları dövlət universitetləridir. Amma dövlət universitetlərində də təhsil pulsuz deyil. Hər bir yerli tələbə dövlət universitetində oxuyanda hər il 9-10 min funt ödəməlidir. Bunu ödəmək üçün xüsusi borc sistemi var. Tələbələr borc götürür və ancaq iş tapandan sonra borcları ödəyirlər". Professorun sözlərinə görə, Böyük Britaniyada özəl universitetlərdə belə tələbə borclarına çıxış məhdud olur: "Ailə vəziyyətlərindən asılı olaraq, tələbələr həm dərs pulu, həm də yaşamaq üçün borclar ala bilirlər. Böyük Britaniyada orta məktəb şagirdləri üç və ya beş il əvvəlcədən bilirlər ki, təhsil haqqı nə qədərdir. Təhsil haqqının məbləğini dəyişmək üçün xüsusi dövlət qurumu qərar verməlidir və bu, cəmiyyətdə müzakirə olunur. Bunu da ancaq bir neçə ildən sonra dəyişmək mümkündür". Q.Mürşüdov hesab edir ki, əgər universitet tələbə ilə bağlanan müqaviləni pozubsa, onu məhkəməyə vermək lazımdır: "Hər bir addım qanun çərçivəsində idarə edilməlidir. Əgər universitet təhsilini tənzimləyən qanunlar yoxdursa, onda bu haqda fikirləşmək lazımdır. Təəssüf ki, hazırda əlaqədar qurumların buna vaxtı yoxdur. Onlar uzun müddət problemlər içərisində olan orta məktəb təhsilinin müasirləşməsi ilə məşğuldurlar".

### "NAZİRLİK TÖVSİYƏSİNİ VERİB, QALANI UNİVERSİTETİN DAXİLİ İŞİDİR"

Təhsil məsələləri üzrə ekspert Asif Cahangirov hesab edir ki, universitetlər verdikləri qərarları özlərinin iqtisadi durumu, strateji planları ilə bağlayırlar. Əgər universitet bu qərarı verirsə, demək onun bir əsası var. Universitet hansısa razılaşma ilə fərdi qaydada güzəşt də edə bilər. Bu baxımdan, universitetə göstəriş vermək düzgün olmaz. Onların öz planları var. Nazirlik tövsiyəsini verib, qalanı universitetin daxili işidir".

Ekspert bildirir ki, Çində özəl beynəlxalq məktəblərə valideynlər ödənişi ildə bir dəfə edir: "Amma bizdə elə müəssisə var ki, yarım ildən bir, eləsi var rübdə bir dəfə istəyir. Elə təhsil ocağı da var ki, hər ayda bir dəfə ödəməyə imkan yaradır. Bu, universitetlərin özləri üçün müəyyənləşdirdikləri qaydalardan asılı olan məsələdir".



Asif Cahangirov

# POMİDOR VƏ XİYARI BAHALAŞDIRAN SƏBƏB



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Pomidor və xiyarın qiymətində gözlənilməz yüksəliş müşahidə olunur. Ekspertlər bunu daha çox mövsümi amillərlə əlaqələndirirlər. Onların fikrincə, yeni məhsullar bazara daxil olandan sonra qiymətlər stabilləşəcək.

Paytaxtın iri marketlərində və bazarlarda son günlər qəribə bir mənzərə yaranıb: pomidor və xiyar piştaxtalarının önündə alıcıların söhbətləri dəyişib. Əvvəllər yalnız keyfiyyət və təzəlikdən danışan müştərilər indi qiymət artımından söz açır, satıcılara suallar yağdırırlar. Tərəvəzlərə olan ənənəvi tələbatın fonunda baş verən bu dəyişiklik həm bazar mühitində, həm də ictimai müzakirələrdə diqqət mərkəzinə çevrilib. Düzdür, mövsümü olaraq hər il bu vaxtlar pomidor və xiyar bahalaşır. Amma builki bahalaşma kəskindir. Bu səbəbdən pomidor və xiyar bir anda həm süfrələrin, həm də xəbər lentlərinin "baş qəhrəmanı" olub. Hər kəsi bir sual düşündürür: görəsən qiymətləri birdən-birə belə kəskin artıran nədir?

### "ŞİMAL BÖLGƏSİNDƏ MƏHSULLAR YAĞIŞIN ALTINDA QALIB"

Sahibkar Eldar Hüseynov artan qiymət artımını hava şəraitinin kəskin dəyişməsi ilə əlaqələndirdi: "Qiymətlərin qalxmasının əsas səbəbi şimal bölgəsində əkilən məhsulların yağışın altında qalmasıdır. İstixanalarda olan məhsullar da demək olar ki, bitib. Yeni məhsullar isə yetişməyib. Hələ ki, ara boşluğu var. Xaçmazda yağan yağışlar imkan vermədi ki, ara boşluğu çöldə əkilən pomidorlar doldursun. Xiyarda isə səbəb köhnə istixanalarda məhsulların bitməsi, yeni istixanalarda məhsulların yetişməməsidir. O səbəbdən qəfildən xiyarın qiyməti artdı. Bir ara havalar tutqun keçdi. Xiyar da elə bitkidir ki, hava şəraiti tutqun olduqda məhsuldarlığa təsir edir. Mütləq günəş olmalıdır".

E.Hüseynov bildirdi ki, bu səbəblərdən daxili bazarda qiymətlər hələ ki, yüksək olaraq qalmaqda davam edəcək: "Amma bir müddət, noyabr ayının sonuna kimi belə olacaq. Xiyarın qiyməti bəlkə enə bilər. Çünki Şəmkir və Salyan istiqamətində tikanlı xiyarlar yetişəcək".

## İstehlakçıları da, fermerləri də narahat edir

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, mövsüm amili burada böyük rol oynayır: "Tərəvəzçilik, xüsusilə pomidor və xiyar istehsalı Azərbaycanın kənd təsərrüfatı sektorunun ən strateji istiqamətlərindən biridir. Bu məhsullar daxili bazarda ən çox istehlak olunan tərəvəzlər olmaqla yanaşı, ölkənin ixrac portfelində də əhəmiyyətli yer tutur. Son dövrlərdə bazarlarda müşahidə olunan qiymət artımı isə həm istehlakçıları, həm də fermerləri narahat edib. Son illərin statistikası göstərir ki, pomidor istehsalında illik dəyişikliklər 5-12 faiz diapazonunda dəyişir, xiyar üzrə isə 3-8 faiz arasında tərəddüd müşahidə edilir. Mövsümi şərait, enerji xərcləri və ixrac prioritetləri məhsuldarlığa birbaşa təsir göstərir".

**Mövsümi şərait, enerji xərcləri, ixrac...**



Eldar Hüseynov

Nahid Əzizli



Foto: Tapdıq Abdullayev/Global Photostock

## "Süni bahalaşma da var"

N.Əzizlinin fikrincə, pomidor və xiyarın qiymətlərinin dəyişməsində bir çox digər təsirlər mövcuddur: "Əsas hava şəraiti və mövsüm amilidir. Yağış, dolu və soyuq dalğaları məhsuldarlığı azaldır, qış mövsümündə isə açıq sahə məhsulu minimuma enir. İstixanaların enerji və gübrə xərcləri yüksəkdir, bu isə maya dəyərini artırır. Azərbaycan pomidor ixracında region ölkələri arasında aparıcı mövqedədir. İxracın artması daxili bazarda təklifi azaldır. Rayonlardan paytaxta daşınma, soyuducu anbarların məhdudluğu, topdan-pərakəndə marjaların yüksək olması qiymət fərqlərini şərtləndirir. Qısa müddətli çatışmazlıq fonunda satıcıların qiymətləri süni artırması da müşahidə edilir. Fermerin məhsulu tarladan çıxardığı qiymətlə Bakıda pərakəndə satış qiyməti arasında 2-3 dəfəyə qədər fərq yaranır. Payız-qış mövsümündə açıq sahə məhsullarının azalması qiymətləri yüksəldir. İstixanaların qızdırılması üçün enerji sərfiyyatının artması istehsal xərclərini də qaldırır. Beləliklə, mövsümi olaraq qiymətlərin artması təbii hesab olunur. Qiymət artımının əsasən mövsümi xarakter daşıdığı qəbul edilir. Lakin ixrac prioriteti və bəzi hallarda topdan-pərakəndə şəbəkələrinin spekulyativ yanaşmaları süni təsirlərin də mövcudluğunu göstərir".

### QİYMƏTLƏRİN SABİTLƏŞMƏSİ MÜMKÜNDÜR

Müsahibimiz qiymətləri sabit saxlamaq üçün atılmalı olan addımlara da toxundu: "Qiymətlərin sabitləşməsi üçün mövsümi idxalın asanlaşdırılması, istixana istehsalçılarının enerji subsidiyaları ilə dəstəklənməsi, bazar nəzarətinin və anti-spekulyasiya tədbirlərinin gücləndirilməsi, fermerlər üçün risk sığortası və yeni texnologiyaların (damcı suvarma, müasir istixanalar) təşviqi vacibdir. Qısa müddətdə, yəni 1–2 ay üçün mövsümi məhsul bazara daxil olduqca qiymətlərdə müəyyən yumşalma mümkündür. Orta müddətdə, yəni 3-6 ayda, payızın sonu və qış mövsümündə qiymətlərin yenidən yüksəlməsi gözlənilir. İstixana sektoruna yatırımlar və logistika infrastrukturunun inkişafı qiymətlərin sabitləşməsini təmin edə bilər".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# KÜÇƏLƏRİ BÜRÜYƏN "TOY TÜSTÜSÜ"

SEVİNC ABBASOVA

Ölkə ərazisində fəaliyyət göstərən şadlıq sarayları və restoranlarda növbəti monitorinqlərə başlanılıb. Məqsəd sadədir – havaya normadan artıq tullantı yayan obyektləri aşkarlamaq və onların fəaliyyətinə qanun çərçivəsində nəzarət etmək. Bu məsələ yalnız ekoloji deyil, həm də şəhər sakinlərinin gündəlik həyatının ciddi problemidir. Paytaxtın bir çox ərazilərində insanlar toy saatlarında pəncərə açmağa belə çəkinirlər. Restoranların bacalarından qalxan tüstü və qızardılan yeməklərin ağır qoxusu ətrafa yayılır. Bəzən həmin küçələri tüstü dumanı bürüyür.

Mütəxəssislər bildirirlər ki, obyektlərdə tullantıların təmizlənməsi üçün xüsusi filtrlər quraşdırılmalı və bu qurğular vaxtında yenilənməlidir. Lakin bir çox restoran bu tələblərə əməl etmir. Nazirlik sahibkarları xəbərdar edir ki, texniki çatışmazlıqlar aradan qaldırılmasa, qanun pozuntularına yol verənlər barəsində inzibati tədbirlər görüləcək. Amma sual açıq qalır: bu monitorinqlər real vəziyyəti dəyişəcəkmi, yoxsa sakinlərin narazılığı yenə də davam edəcək?

### SAHİBKAR MƏSULİYYƏTSİZLİYİ

"Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova bildirir ki, şadlıq evləri və restoranlardan yayılan tüstü ilə bağlı rəhbərlik etdiyi təşkilata da mütəmadi şikayətlər daxil olur. Onun sözlərinə görə, məsələ dəfələrlə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin diqqətinə çatdırılıb. Nazirlik monitorinqlər keçirir, sahibkarlara cərimələr tətbiq edir. Lakin görülən tədbirlər real nəticə vermir.

İradə Həsənova hesab edir ki, əsas problem sahibkarların məsuliyyətsiz yanaşmasındadır: "Düzdür, monitorinqlər aparılır, cərimələr yazılır. Amma çox təəssüf ki, sahibkarlar cəriməni ödəyib, sonra yenə də istədikləri kimi fəaliyyətlərini davam etdirirlər. Əslində həmin obyektlərdə xüsusi filtr və qurğular quraşdırılmalıdır ki, tüstünün qarşısı alınsın. Bəzi iri və məsuliyyətli sahibkarlar buna diqqət yetirirlər, amma bir çoxları hələ də laqeyd davranır. Onlar yalnız öz qazancını düşünür, insanların sağlamlığına, ətraf mühitə heç bir önəm vermirlər. Halbuki havanın çirklənməsi təkcə o küçədə yaşayanları deyil, ümumən bütün cəmiyyəti zərbə altında qoyur. Bu dünyada onların da yaxınları, övladları, doğmaları yaşayır və havanın zəhərlənməsi onlara da təsir edir".

**Toy mövsümündə hər il analoji hal təkrarlanır. Söhbət şadlıq saraylarından qalxan qatı tüstünün, qoxunun ətrafa yayılmasından və insanları narahat etməsindən gedir. Ekspertlər problemin həllini cərimələrin artırılmasında, restoranların sayının azaldılmasında görürlər.**

## "PROBLEM ŞADLIQ SARAYLARININ ÇOX OLMASIDIR"

Ekspertin sözlərinə görə, məsələ yalnız dövlət qurumlarının nəzarəti ilə həll olunmayacaq. İctimai nəzarət, sosial şəbəkələrdə aktiv müzakirə və maarifləndirmə də paralel aparılmalıdır: "Çox istəyərdim ki, bu məsələyə daha ciddi yanaşaq. Sosial şəbəkələrdə bu barədə daha çox tənqidi yanaşmalar ortaya qoyulsun. Yerli icra hakimiyyətləri, bələdiyyələr, vətəndaş cəmiyyəti nümayəndələri birgə çalışmalıdırlar. Maarifləndirmə işi aparılmalı, sahibkarlara iqlim dəyişikliyinin hansı təhlükələr yaratdığı izah edilməlidir. Ola bilsin ki, bəzi sahibkarlar bunun zərərlərini sadəcə bilmirlər. Biz bu gün tədbir görməsək, gələcək nəsillərin sağlamlığı təhlükə altında qalacaq".

İradə Həsənova əlavə edir ki, məsələnin kökündə yalnız filtr və tüstü problemi deyil, həm də şadlıq saraylarının sayının həddindən artıq çoxluğu dayanır: "Dünyanın heç bir ölkəsində bu qədər şadlıq evi yoxdur. Bizim ölkənin ərazisi və əhalisi ilə müqayisədə obyektlərin sayı həddən artıqdır. Yemək-içmək, restoran mədəniyyəti şişirdilib. İsrafçılıq çox böyük həddədir. Bu da təbiətə, resurslara, həm də insanların sosial davranışına mənfi təsir edir. Artıq bu tendensiyanın qarşısı alınmalı, israfçılığa son qoyulmalıdır".

### "CƏRİMƏLƏRİN MƏBLƏĞİ ARTIRILMALIDIR"

Ekspert hesab edir ki, problemin köklü həlli üçün cərimələrin məbləği də artırılmalıdır: "Hazırkı cərimələr çox aşağıdır. Sahibkar onu ödəyib rahatlıqla fəaliyyətinə davam edir. Əgər cərimə məbləği ən azı 5-10 min manat olsa, sahibkar məsuliyyəti dərk edəcək. O zaman filtr qurğularını vaxtında dəyişməkdə, havaya buraxılan tullantını azaltmaqda maraqlı olacaq. Təcrübə göstərir ki, bəzi hallarda maarifləndirmə kifayət etmir. Ən təsirli vasitə cəza tədbirlərinin sərtləşdirilməsidir. İnsan yalnız o zaman məsuliyyətini anlayır ki, qarşısında ciddi maliyyə itkisi durur. Əgər bu addımlar atılarsa, qısa müddətdə real nəticələr əldə etmək mümkündür".










## ŞƏHƏR MƏRKƏZİNDƏ VƏZİYYƏT NƏZARƏT ALTINDADIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov deyir ki, monitorinqlər sahibkarları daha məsuliyyətli olmağa vadar edir. Onun sözlərinə görə, 2018-ci ildən iri restoranlarda filtr qurğularının istifadəsi ciddi şəkildə nəzərə alınır. Mərkəzi ərazilərdə bu istiqamətdə vəziyyət artıq əhəmiyyətli dərəcədə yaxşılaşıb, tüstü və ətraf mühitə ziyan verən hallar minimuma enib. İri şadlıq evlərinin çoxu artıq tüstünü neytrallaşdıran qurğular quraşdırıb. Lakin şəhər kənarlarında və rayonlarda hələ də problemlər mövcuddur.

### " RESTORAN SAHİBLƏRİ ƏLAVƏ XƏRC ÇƏKMƏK İSTƏMİRLƏR"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə hesab edir ki, bəzi sahibkarlıq subyektləri dövlətin onlara yaratdığı biznes mühitindən sui-istifadə edirlər: "Bu problem ölkədə illərdir yaşanır. Əlbəttə, vətəndaşlar şikayətlərində haqlıdırlar. Əslində tüstünün açıq havaya ötürülməsinin qarşısını almaq sadə bir işdir. Restoran və şadlıq evləri üçün nəzərdə tutulmuş böyük ölçülü aspiratorlar var. Restoran sahibləri bunları alıb quraşdırmalı, tüstünün, qoxunun ətrafa yayılmasının qarşısını almalıdırlar. Amma əksəriyyəti əlavə xərc çəkmək istəmir. "Tüstüdür də, havaya ötürüləndə nə olacaq?", - deyib məsuliyyətsiz davranış nümayiş etdirirlər. Zərər çəkən ətrafda yaşayan sakinlər və ümumilikdə ekoloji mühitdir".



# GİNNESİN REKORDLAR MUZEYİNDƏN REPORTAJ

Kopenhagendə yerləşən bu muzey Avropada insanların inanılmaz nailiyyətlərini təqdim edən yeganə interaktiv muzeydir. Muzeyin yaradıcısı dünyanın müxtəlif ölkələrindən olan insanların 500-ə yaxın inanılmaz rekordunu bir yerdə toplamağa müvəffəq olub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kopenhagenin turistik məkanında - Yeni Kral Meydanının yaxınlığında planetin ən qeyri-adi muzeyi yerləşir: Ginnesin Dünya Rekordları Muzeyi. Bu, Avropada dünyanın hər yerindən insanların inanılmaz nailiyyətlərini təqdim edən yeganə interaktiv muzeydir. “Çətin ki, bir yerdə bu qədər fərqli maraqlar tapa biləsiniz. Buna görə də anı qiymətləndirməyə dəyər. Belə bir muzey həm uşaqlar, həm də böyüklər üçün maraqlıdır”, - deyə muzeyin girişində ziyarətçilərə bildirilir.

### 11 ZALDA 500-DƏN ARTIQ REKORD

Muzeyin yaradıcısı karikaturaçı Leroy Ripli dünyanın hər yerindən insanların 500-ə yaxın inanılmaz rekordunu bir yerdə toplamağa müvəffəq olub. O, planeti gəzərkən uzun müddət ərzində topladığı inanılmaz eksponatlar kolleksiyası sayəsində bütün dünyada məşhurlaşıb. Muzeyin eksponatları 1000 kvadratmetrdən çox sahəsi olan ikimərtəbəli binada nümayiş olunur. Bütün eksponatlar məşhur Ginnesin Rekordlar Kitabı ilə bağlıdır. Ekspozisiya 11 zalda yerləşir.

Muzeyin yaranması haqqında məlumatlar maraq doğurur. “Hər şey 1955-ci ildə Ross və Norris McWhirter tərəfindən Ginnesin Rekordlar Kitabının ilk nəşri ilə başladı”, - deyə muzeyin əməkdaşı məlumat verir: “Kitab təkcə birinci ildə 187 000 nüsxə satılıb. Zaman keçdikcə dünyanın hər yerindən insanlar kimin daha güclü, daha uzun, daha qısa, daha kök, daha uca olması ilə bağlı yarışmağa başladılar. Onlar bu dünyaca məşhur nəşrin səhifələrinə düşməyə çalışırdılar. Bu gün qonaqlar bu heyrətamiz rekordlar haqqında nəinki oxuya, həm də bu nailiyyətləri nümayiş etdirən eksponatlara toxuna, onları vizual izləyə bilərlər”.




## HEYRƏTAMİZ REKORDLAR

Karikaturaçı dünya rekordlarının kolleksiyasını yaratmaq üçün çox çalışıb: “Bunların arasında görkəmli, möhtəşəm, gülməli və qəribə nailiyyətlər var”, - deyə muzeyin əməkdaşı məlumat verir: “Muzeydə təqdim olunan bütün eksponatlar ən yüksək və ən aşağı, ən uzun və ən qısa nailiyyətləri təmsil edir. Məsələn, ən uzun və ən kök insanı təsvir edən mum fiqurlar var”.

Bəzi rekordlar - elm, idman, incəsənət, bağçılıq və digər sahələrdə ən görkəmli nailiyyətlərdən bəhs edən fotoşəkillər və videolar şəklində təqdim olunur.

Rekordlar Muzeyində həqiqətən ən qeyri-adi, bənzərsiz rekordları izləmək olur. Məsələn, düz girişdə ziyarətçiləri planetin ən hündür adamı Robert Uodlounun 2 metr 72 sm boyu olan mum fiquru qarşılayır.

Digər eksponat dünyada təsdiqlənmiş ən ağır çəkiyə malik Robert Erl Hughesin mum fiqurudur. O, 485 kq çəkiyə malik olub. Mum fiqurlar real ölçüdə təqdim olunur.

Muzeydə təqdim olunan üçüncü rekordçu həyatında velosipedlər “yemiş” adamdır. 1950-ci ildə Qrenoblda anadan olan Mişel Lotito adlı bu kişi metal və şüşə yeyir. 1966-cı ildən 18 velosiped, iki çarpayı, bir tabut, 15 supermarket arabası, yeddi televizor, altı çilçıraq, bir aşağı kalorili yüngül “Cessna” təyyarəsi və kompüter - cəmi səkkiz ton metal yeyib. O, heç vaxt həzm sistemindən şikayət etməyib.

Uzunluğu üç metrdən çox olan ən uzun bığ, doqquz metr uzunluğunda qadın dırnaqları və s. rekordlar ekspozisiyalarda təqdim olunur.

Muzeyə gələnlər ən çox hündürlüyə tullanmanın səviyyəsini aydın qiymətləndirə bilərlər - 2 m 45 sm.

1955-ci ildə İtaliyada bir qadın çəkisi 10 kiloqramdan çox olan yeni körpə dünyaya gətirib. Uşağın fiqurunun yanında vizual müqayisə üçün adi körpənin başqa bir mum heykəli var.

Eksponatlar arasında 20 məktəblinin yerləşdiyi telefon köşkü və planetin hər yerindən toplanmış bir çox digər inanılmaz və heyrətamiz rekordlar böyük maraq doğurur.

## BİR SAAT ƏRZİNDƏ 1049 KƏRPİC

Muzeyin kino zalında məşhur rekordçuların hazırlığından bəhs edən sənədli filmlərə baxmaq olur. Otaqlarda mistisizmə, kabuslara həsr olunmuş zal, həmçinin oturmağa icazə verilən elektrik stul da var. Pop kralı Maykl Cekson və Merilin Monronun mum fiqurları da muzeydə nümayiş olunur.

Muzeydə texnologiya sahəsində ən məşhur qeydlər nümayiş etdirilir. Yer üzündə yetişdirilən ən böyük tərəvəz və meyvələrin modelləri olan rəf də maraq doğurur. Hər birində məhsulun çəkisi, ölçüsü və ili haqqında məlumat olan etiket yer alıb.

Köhnə qatar atmosferinin yenidən qurulması da xoşagələndir. Kupenin əşyaları dəmir yolu səyahətində bəzi nailiyyətləri simvolizə edir.

Otaqların birində yerli bir fəhlənin obrazı var. Dane Hansen adlı fəhlə bir saat ərzində 1049 kərpic qoya bilib. Onun yanında hörülmüş divar var. Bu, onun cəmi 60 dəqiqə ərzində nə qədər inşa etdiyini daha aydın göstərir.

### MƏHƏMMƏD ƏLİNİN ƏLCƏKLƏRİ

İdman qalereyası bölümündə rekorda imza atan idmançılar arasında əfsanəvi boksçu Məhəmməd Əlinin qırmızı dəri əlcəyi də yer alıb. Amma bu əlcəyin əfsanəvi boksçuya məxsus olub-olmaması hələ də müzakirə mövzusudur. Bəzi mənbələrə görə, boks əfsanəsinin döyüş əlcəyi Vaşinqton Milli Tarix Muzeyinə hədiyyə olunub. Ginnesin Rekordlar Muzeyində sərgilənən isə həmin əlcəyin surətidir. Ziyarətçilər boksçunun döyüş səhnələrini və rekordlarını monitorda izləyə bilirlər.

Otaqlarda texnologiyanın möcüzələri də adamı heyran edir. Ekspozisiyada interaktiv “Mystic Exploratorie“ sərgisi “kainatın mistik sirlərini kəşf etməyə” həsr olunub. Burada ziyarətçi öz kölgəsini tuta, qarşısındakı insanla başını dəyişdirə, dibsiz quyuda əks-sədaya qulaq asa və elektrik stulda otura bilər. Həqiqi elektrik enerjisini özlərindən keçirtmək istəyənlər üçün burada bir cazibə var.

Ginnesin Dünya Rekordlar Muzeyi müasir attraksionları ilə uşaqlı ailələr üçün də maraqlıdır.




ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
27 SENTYABR ŞƏNBƏ 2025
www.kaspi.az




# GÜLƏŞÇİLƏRİMİZDƏN MÖHTƏŞƏM NƏTİCƏLƏR



**Azərbaycan Zaqrebdəki güləş üzrə dünya çempionatında 23 güləşçi ilə təmsil olundu. Həm sərbəst, həm də yunan-Roma güləşində sevindirici nəticələr qeydə alındı. İdmançılarımız turnirdən yeddi medalla qayıtdılar.**

Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə dünya çempionatı keçirildi. Müxtəlif çəki dərəcələrində xalça üzərinə çıxan idmançılarımız azarkeşlərə həm gərgin qarşılaşmalar təqdim etdilər, həm də medal sevinci yaşatdılar.

### 23 PƏHLƏVANIN MÜBARİZƏSİ

Azərbaycanı Zaqrebdə 23 güləşçi təmsil etdi. Həm sərbəst, həm yunan-Roma, həm də qadın güləşində təmsilçilərimiz uğur qazanmağa çalışdılar.

Sərbəst güləşdə İslam Bazarqanov (57 kq), Nürəddin Novruzov (61 kq), Əli Rəhimzadə (65 kq), Kənan Heybətov (70 kq), Turan Bayramov (74 kq), Cəbrayıl Qadjiyev (79 kq), Arseniy Djioyev (86 kq), Osman Nurmaqomedov (92 kq), Maqomedxan Maqomedov (97 kq) və Giorgi Meşvildişvili (125 kq) xalça üzərinə çıxdılar.

Qadın güləşi üzrə yarışlarda Jalə Əliyeva (57 kq), Günay Qurbanova (59 kq) və Birgül Soltanova (62 kq) güclərini sınadılar.

Yunan-Roma güləşində isə Eldəniz Əzizli (55 kq), Nihat Məmmədli (60 kq), Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Qurban Qurbanov (82 kq), İslam Abbasov (87 kq), Murad Əhmədiyev (97 kq) və Beka Kandelaki (130 kq) mübarizə apardılar.

## Sərbəst güləşçilərimizdən üç medal

Mübarizəyə ilk olaraq sərbəst güləşçilər başladılar. Xalça üzərinə çıxan pəhləvanlarımız azarkeşlərə həm möhtəşəm qələbələr, həm də medal sevinci yaşatdılar.

Əvvəlcə Nürəddin Novruzov gücünü nümayiş etdirdi. O, təsəlliverici görüşlərdə ekvadorlu Coşua Krameri 10:0, ardınca isə ukraynalı Kamil Kərimovu 12:2 hesabı ilə üstələdi. Bürünc medal uğrunda görüşdə isə Şimali Koreya idmançısı Kum Kimi "xalçadan sildi". Rəqibini "tuş"la məğlub edən Nürəddin dünya çempionatının bürünc medalını qazandı.

86 kq-da Arseniy Djioyev də yarışı uğurlu nəticə ilə başa vurdu. O, təsəlliverici görüşdə ukraynalı Muxammed Aliyevi 7:2 hesabı ilə üstələdikdən sonra həlledici görüşdə fransalı Raxim Maqamadova heç bir şans tanımadı – 7:0.

Sərbəst güləşdə ən yaxşı nəticəni Giorgi Meşvildişvili qazandı. Finala qədər inamla irəliləyən pəhləvanımız burada dəfələrlə dünya və Olimpiya çempionu olmuş iranlı Amir Zare ilə üz-üzə gəldi. Gərgin mübarizədə titullu rəqibinə 0:5 hesabı ilə uduzan Meşvildişvili gümüş medalla kifayətləndi.

Son olaraq 92 kq çəki dərəcəsində xalça üzərinə çıxan Osman Nurmaqomedov azarkeşlərə medal sevinci yaşatdı. Bürünc medal uğrunda həlledici qarşılaşmada təmsilçimiz gürcüstanlı Miriani Maysuradze ilə üz-üzə gəldi. Görüş boyu rəqibinə imkan verməyən Nurmaqomedov 5:1 hesablı qələbə qazandı və dünya üçüncülüyünə yüksəldi. Digər güləşçilərimiz arasında da bir neçə medal qazanmaq şansı olsa da, yekunda kiçik səhvlər həlledici oldu və onlar yarışı medalsız başa vurdular.

## Eldəniz Əzizlidən rekord

Qadın güləşində uğursuzluq yaşansa da, Azərbaycanın yunan-Roma güləşçiləri Zaqrebdə daha uğurlu nəticə ilə yadda qaldılar. İlk olaraq 55 kq çəki dərəcəsində xalça üzərinə çıxan təcrübəli pəhləvan Eldəniz Əzizli medalçılar sırasına düşdü. Bürünc uğrunda qırğızıstanlı Ulan Uulu ilə qarşılaşan təcrübəli pəhləvan görüşün ilk hissəsində öz sözünü deməyi bacardı. Tam üstünlüklə – 9:0 hesabı ilə qələbə qazanan kapitanımız dünya üçüncülüyünə yüksəldi. Bu nəticə ilə Eldəniz Əzizli karyerasında yeddinci dəfə böyüklər arasında medal qazandı. Onun hesabında artıq dörd dünya çempionluğu və üç bürünc var. Bu göstərici ilə o, Azərbaycan güləşinin yeni rekordçusuna çevrilərək idman tariximizə öz adını qızıl hərflərlə yazdırdı.

### ÜLVİDƏN ARDICIL İKİNCİ ÇEMPİONLUQ

Mundialda ən yaxşı nəticəmizi Ülvi Qənizadə əldə etdi. 72 kq çəki dərəcəsində xalça üzərinə çıxan pəhləvanımız finala qədər rəqiblərinə heç bir şans vermədi. Həlledici qarşılaşmada o, ötənilki finaldan tanıdığı fransalı İbrahim Qanemlə üz-üzə gəldi. Son dərəcə gərgin və taktiki mübarizə şəraitində keçən döyüşdə həmyerlimiz soyuqqanlılığını qoruyaraq 4:2 hesablı qələbə qazandı. Bununla da, Qənizadə dünya çempionu titulunu qorudu və ikinci dəfə planetin ən güclüsü adına yiyələndi.

97 kq çəki dərəcəsində çıxış edən Murad Əhmədiyev isə mundialdakı debütünü möhtəşəm uğurla tamamladı. Bürünc medal uğrunda macarıstanlı Aleks Soke ilə gərgin görüşdə təmsilçimizin ilk hissədə tətbiq etdiyi dörd xallıq fənd görüşün taleyini həll etdi. Döyüş 5:5 hesabı ilə bitsə də, xalların keyfiyyətinə görə üstün olan tərəf Murad oldu. Zaqrebdə son medalımızı Həsrət Cəfərov qazandı. Finala qədər itkisiz irəliləyən idmançı burada iranlı Səid Esmaili ilə münasibətlərə aydınlıq gətirdi. Rəqibinə minimal fərqlə məğlub olan Həsrət gümüş medalla kifayətləndi. Yekunda mötəbər yarışda bir qızıl, bir gümüş və iki bürünc medal qazanan yunan-Roma güləşi üzrə millimiz 89 xalla komanda hesabında dünya ikincisi oldu. İran (180) birinci, Özbəkistan (72) isə üçüncü yeri tutdu. Ümumilikdə isə güləşçilərimiz Zaqrebdən Vətənə yeddi medalla qayıtdılar.